**SAHIBKARLIĞA VƏ BAZAR İQTISADIYYATININ İNKIŞAFINA YARDIM FONDU**
**İQTİSADİ TƏŞƏBBÜSLƏRƏ YARDIM İCTİMAİ BIRLİYİ**

# AZƏRBAYCANDA ƏT VƏ ƏT MƏHSULLARI ISTEHSALI SEKTORU:
## PROBLEMLƏR VƏ PERSPEKTIVLƏR
(kolbasa və kolbasa məmulatları timsalında)

**Bakı 2017**

*Sənəd Sahibkarlığa və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondunun ABŞ BİA-nın maliyyə dəstəyi ilə həyata keçirilən* ***"Azərbaycanda kiçik sahibkarlığın***

***inkişafına dəstək"** layihəsi çərçivəsində İqtisadi Təşəbbüslərə Yardım İctimai Birliyinin ekspertləri tərəfindən hazırlanıb*

**Müəllif:**

**Azər MEHTİYEV**

## Mündəricat

**Giriş** ........................................................................................................................... 3

**1. Azərbaycanda ət və ət məhsulları bazarının müasir vəziyyəti** .................................... 4

**2. Sektorun inkişafının tənzimlənməsi sahəsində dövlət siyasəti** ................................ 18

**3. Ət və ət məmulatlarının istehsalı sektorunun dəyər zənciri üzrə mövcud problemləri** ............................................................................................................... 22

**Nəticə və tövsiyələr** ............................................................................................... 31

**Əlavələr** ................................................................................................................... 37

# Giriş

Bütün inkişaf etməkdə olan ölkələrdəki tendensiyalara bənzəyən inkişaf, ərzaq və sağlam qidalanma kimi kontekstlərdə kritik bir göstərici hesab edilən ət və ət məhsullarının istehsalı və istehlakı ölkəmizdə də ildən-ilə artmaqdadır. Lakin bu artım templəri ölkənin hazırki və gələcək tələbləri baxımından yetərli deyil.

Ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi və əhalinin ərzaq təminatının gücləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edən sahələrdən biri ət və ət məhsulları istehsalı sektorudur. Bu sektorun inkişafı həm də müasir dövrdə ölkədə qeyri-neft sektorunun inkişaf etdirilməsi və ölkənin idxal ərzaq məhsullarından asılılığının azaldılmasının təmin edilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Təsadüfi deyil ki, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə xüsusi olaraq vurğulanır ki, həm əhalinin istehlakı üçün kolbasa məmulatları, həm də kolbasa sənayesi üçün ət xammalı ölkəyə böyük həcmlərdə idxal olunur.

Bu sektor habelə həm kənd təsərrüfatı, həm də sənaye istehsallarının əlaqələndirilmiş şəkildə inkişafını zəruri edən bir sektordur. Ət və ət məhsulları sektoru heyvam və quş ətinin istehsalı (heyvandarlıq və quşçuluq), ətin kəsilməsi, emalı və saxlanması və ət məhsullarının (kolbasa və kolbasa məmulatlarının istehsalı) kimi 3 alt sektoru birləşdirir.

Bu araşdırmanın məqsədi ölkədə ət və ət məhsulları istehsalı sektorunun müasir inkişafı vəziyyətinin öyrənilməsi, sektorun inkişafına mane olan problemlərin aşakara çıxarılması və onların aradan qaldırılması istiqamətində tövsiyələrin işlənilməsidir.

Araşdırma zamanı sektorun vəziyyətini əks etdirən statistik informasiya bazası tədqiq olunub, statistik metodlarla təhlil işləri aparılıb, sektorun fəaliyyətini tənzimləyən dövlət qurumlaırnın elektron resurslarından zəruri məlumatlar əldə olunub, sektorda fəaliyyət göstərən firmalar haqqında məlumatlar toplanıb, habelə sektorda çalışan sahibkarlarla söhbətlər aparılıb və problemlərlə bağlı onlaırn fikir və mövqeləri öyrənilib.

Tədqiqatın birinci bölməsində rəsmi dövlət statistik məlumatların təhlili əsasında Azərbaycanda ət və ət məhsulları bazarının mövcud durumu, yerli istehsal və idxalın vəziyyəti qiymətləndirilib, habelə sektorda son illər müşahidə olunan inkişaf meylləri aşkarlanıb. Burada habelə sektorda fəaliyyət göstərən firmaların müəyyən edilməsinə cəhd göstərilib.

Araşdırmanın ikinci bölməsində sektorun inkişafının tənzimlənməsiin normativ-hüquqi bazası və sahənin gələcək inkişafı ilə bağlı dövlət siyasətini əks etdirən proqram sənədləri barədə qısa məlumat verilib.

Araşdırmanın üçüncü bölməsində ət və ət məmulatlarının istehsalı sektorunun dəyər zənciri qurulub və dəyər zəncirinin 4 mühüm həlqəsi üzrə mövcud problemlər aşakara çıxarılıb.

Nəhayət, tədqiqatın sonunda araşdırmanın tapıntıları (nəticələri) verilib, sektorun inkişafına mane olan problemlər ümumiləşdiriləərk təqdim edilib və həmin problem-lərin aradan qaldırılması üçün konkret tövsiyələr irəli sürülüb.

## 1. Azərbaycanda ət və ət məhsulları bazarının müasir vəziyyəti

Hər bir ölkədə ət və ət məhsulları bazarının durumu əhalinin ərzaq təminatı və sağlam qidalanma, habelə ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından xüsusi əhəmiyyətli bir məsələ hesab olunur. Hər bir insanın sağlam yaşaması üçün onun yetərli miqdarda karbohidrat, yağ və protein qəbul etməsi önəmlidir. Beynəlxalq araşdırmalara görə, insanın sağlam qidalanması üçün hər kəs bədən çəkisinin 1 kg-ı üçün təqribən 0.8-1.4 qram arası protein istehlak etməlidir[1]. Bunlar ən müxtəlif

mənbələrdən əldə olunsa da, insan üçün zəruri olan proteinin 42%-nin heyvan mənşəli məhsullardan əldə olunması vacibdir[2]. Heyvan mənşəli proteinin mühüm mənbəyi ət və ət məhsulları hesab olunur.

Dövlət Statistika Komitəsinin (DSK) məlumatlarına əsasən, Azərbaycanda ev təsərrüfatları üzrə illik hər nəfərə düşən ət və ət məmulatları istehlakının miqdarı 2005-ci ildə 29.4 kq, 2010-cu ildə 31.5 kq, 2015-ci ildə isə 33.9 kq olub. 2016-cı ildə isə bu göstərici bir qədər azalıb və 33.5 kq səviyyəsində qərarlaşıb (*diaqram 1*).




**Diaqram 1. Ev təsərrüfatlarında ət və ət məhsullarının adambaşına istehlakı, ildə kiloqramla. (Mənbə: DSK, https://www.stat.gov.az/source/budget_households/ )**

Qeyd etməliyik ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 6 iyun tarixli 182 nömrəli qərarı ilə təsdiq edilmiş minimum istehlak səbəti üzrə ərzaq normalarına görə, əmək qabiliyyətli yaşda əhali üçün 1 nəfərin illik ət və ət məhsullarının (balıq və balıq məhsulları daxil edilmədən) istehlak norması 32.9 kq, pensiyaçılar üçün 25.6 kq və əmək qabiliyyətli yaşadək (16 yaşınadək) əhali üzrə 29.6 kq müəyyən edilib[3]. Nazirlər Kabinetinin təsdiq etdiyi bu minimum istehlak normaları əsasında DSK bütün əhali üzrə orta hesabla 1 (bir) nəfər üçün minimum istehlak normasını 31.5 kq səviyyəsində hesablayıb[4]. Deməli, DSK-nın məlumatına əsasən, 2010-2016-cı illər dövründə ölkəmizdə hər nəfər hesabı ilə ət və ət məhsullarının istehlak səviyyəsi minimum istehlak büdcəsi həddində olub.

***Hər nəfər hesabı ilə orta illik ət istehlakının müqayisəsi.*** Azərbaycanda hər nəfər hesabı ilə ət və ət məhsulları istehlakının DSK tərəfindən elan olunan bu səviyyəsi dünya üzrə orta hesabla hər nəfərə düşən illik ət istehlakı səviyyəsindən bir qədər aşağıdır: OECD-nin məlumatlarına görə bu göstərici 2014-cü ildə təqribən 34.0 kq səviyyəsində olub[5]. OECD-nin hesablamalarına görə, 2016-cı ildə bütün növlər (mal, qoyun, keçi, donuz,quş əti və s.) nəzərə alınmaqla hər nəfər hesabı ilə ət isteklakı İranda 27 kq, Türkiyədə 30.3 kq, Ukraynada 46 kq, Qazaxstanda 44 kg, Rusiyada 60 kq, Avropa Birliyi ölkələrində orta hesabla 69 kq olub. Dünyada hər nəfər hesabı ilə ən çox ət istehlak edən ölkələr sırasında ABŞ (təqribən 97 kq), Avstraliya (94.8 kq), Uruqvay (81 kq) və Braziliyanı (77.2 kq) qeyd etmək olar[6].

---

[1] https://www.hsph.harvard.edu/nutritionsource/what-should-you-eat/protein/ ; https://healthyeater.com/eating-meat
[2] Gida sektorunda deger zenciri analizi. 2013. TEPAV, səh. 49
[3] http://e-qanun.az/framework/27834
[4] https://www.stat.gov.az/source/food_balances/
[5] http://www.oecd-ilibrary.org/agriculture-and-food/oecd-fao-agricultural-outlook-2015/meat_agr_outlook-2015-10-en
[6] https://data.oecd.org/agroutput/meat-consumption.htm#indicator-chart




**Diaqram 2. Dünyanın ayrı-ayrı ölkələrində hər nəfər hesabı ilə illik orta ət istehlakı, kq (Mənbə: OECD (Azərbaycan üzrə məlumat istisna olmaqla); DSK)**

Bu məlumatlar Azərbaycanda ət və ət məmulatlarının istehlak səviyyəsinin orta Avropa səviyyəsinin hələ heç yarısı qədər olmadığını göstərir.

DSK-nın mlumatına görə, 2016-cı ildə Azərbaycanda illik ümumi pərakəndə ticarət dövriyyəsi 30.2 mlrd. AZN miqfarında olub ki, bunun da yarısı – 15.1 mlrd. manatı - ərzaq məhsulları, içkilər və tütün məmulatlarının dövriyyəsindən ibarət olub. DSK-nın məlumatlarına əsasən, 2016-cı ildə ərzaq məhsulları üzrə üzrə pərakəndə ticarət dövrüiyyəsinin təqribən ¼-i bütün növlərdən olan ət və ət məhsullarının (balıq və balıq məhsulları, habelə diri kənd təsərrüfatı heyvanlarının pərakəndə satışı da daxil olmaqla) payına düşüb. 2016-cı ildə ölkə üzrə ümumi pərakəndə ticarət dövriyyəsinin cəmi 5%-i ət, 1.8%-i quş əti və 0.6%-i ət məhsullarının alqı-satqısı ilə bağlı olub.

***Ət və ət məhsullarının pərakəndə satış dövriyyəsi***. DSK-nın məlumatına görə, 2016-cı ildə ölkəmizdə ət və ət məhsullarının (balıq və balıq məhsulları, diri kənd təsərrüfatı heyvanlarının satışı nəzərə alınmadan) pərakəndə ticarət dövriyyəsinin ümumi həcmi 2.2 mlrd. manat olub ki, bunun da 1.5 mlrd. manatı (67.2 %-i) ətin (quş əti daxil olmadan), 554.4 milyon manatı (24.8 %-i) quş ətinin, 173.3 milyon manatı (7.8 %-i) isə ət məhsullarının (kolbasa və kolbasa məmulatları və s.) payına düşüb (*cədvəl 1*).

**Cədvəl 1**

**2005-2010-cu illərdə ət və ət məhsulları üzrə pərakəndə ticarət dövriyyəsi, mln. AZN**

| | 2005 | 2010 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|---|
| Ətin pərakəndə satışı *(quş ətindən başqa)* | 343,1 | 815,1 | 1229,2 | 1282,6 | 1386,5 | 1498,5 |
| Ev quşları ətinin pərakəndə satışı | 133,4 | 309,7 | 387,6 | 399,3 | 491,5 | 554,4 |
| Ət məhsullarının pərakəndə satışı *(quş əti məhsulları daxil edilməklə)* | 16,8 | 71,3 | 122,2 | 135,8 | 153,8 | 173,3 |
| Ət konservlərinin pərakəndə satışı *(quş ətindən konservlər daxil edilməklə)* | 0,7 | 2,2 | 3,4 | 3,6 | 3,9 | 4,8 |

(Mənbə: DSK: https://www.stat.gov.az/source/trade/ )

Diqaram 3-dən göründüyü kimi, ölkədə ət və ət məhsullarının pərakəndə ticarətinin əksər hissəsini iribuynuzlu və xırda buynuzlu heyvan əti təşkil edir.




**Diqaram 3. 2016-cı ildə Azərbaycanda ət və ət məhsullaırnın pərakəndə ticarət dövriyyəsinin strukturu, ümumi yekuna görə faizlə (mənbə: DSK)**

2010-cu illə müqayisədə 2016-cı ildə pərakəndə ticarət dövriyyəsinin həcmi ət üzrə (quş əti olmadan) 83.8%, quş əti üzrə 79.0%, ət məhsulları üzrə 2.4 dəfə, ət konservləri üzrə 2.2 dəfə artıb (*cədvəl 1*).

***Ət və ət məhsullarının ehtiyatları.*** Azərbaycanın DSK tərəfindən tərtib edilmiş icmal ərzaq balansına əsasən, 2016-cı ildə ölkədə ümumilikdə 302.2 min ton bütün növ ət və ət məhsulları (balıq və balıq məhsulları olmadan) istehsal edilib, 41.7 min ton həcmində isə idxal olub (cədvəl 2).

**Cədvəl 2**
**2016-cı ildə Azərbaycanın icmal ərzaq balansı, mal-qara əti, quş əti və ət məhsulları, ton**

| | İlin əvvəlinə qalıq | İstehsal | İdxal | Ehtiyatların cəmi | Sənaye ehtiyaclarına | Ərzaq məhsulu kimi (emal edilmədən) | İxrac | İtkilər | İlin sonuna qalıq |
|---|---|---|---|---|---|---|---|---|---|
| **Mal-qara və quş əti və ət məhsulları, cəmi** | 4139 | 302227 | 41719 | **348085** | 16157 | 325935 | 134 | 1614 | 4245 |
| mal əti və ət məhsulları | 1673 | 130984 | 9245 | **141 902** | 14927 | 124815 | 132 | 485 | 1543 |
| qoyun və keçi əti və ət məhsulları | 1011 | 75254 | 994 | **77259** | - | 75834 | 2 | 355 | 1068 |
| donuz əti və ət məhsulları | 65 | 472 | 6225 | **6762** | 1167 | 5450 | - | 49 | 96 |
| quş əti və ət məhsulları | 1390 | 95517 | 25255 | **122162** | 63 | 119836 | - | 725 | 1538 |

(Mənbə: DSK, https://www.stat.gov.az/source/food_balances/ )

İcmal ərzaq balansına əsasən 2016-cı ildə ölkənin illlik ümumi ət və ət məhsulları ehtiyatının 86.8%-i ölkədə istehsal edilib, 12%-i isə idxal olunub.

2016-cı ildə ümumi ət və ət məhsulları ehtiyatının 141.9 min tonu (yaxud 40.8%-i) iribuynuzlu heyvan (mal) əti, 77.3 min tonu (22.1%-i) xırdabuynuzlu heyvan (qoyun və keçi) əti, 122.2 min tonu (35.1%-i) quş əti və onun məhsulları, qalan 6.8 min tonu (1.9%-i) isə donuz əti və onun məhsullarından ibarət olub (diaqram 4).




**Diaqram 4. 2016-cı ildə icmal ərzaq balansı üzrə ümumi ət və ət məhsulları ehtiyatının tərkibi və quruluşu, ümumi yekuna görə faizlə**

İcmal ərzaq balansına əsasən, 2016-cı ildə ölkədə formalaşmış mal əti və onun məhsullarının 92.3%-i ölkədə istehsal edilmiş, 6.5%-i isə idxal edilmişdir. Xırdabuynuzlu heyvan ətinin üzrə bu göstəricilər, müvafiq olaraq, 97.4% və 1.3%, quş əti və məhsulları üzrə 88.2% və 20.7%, donuz əti və məhsulları üzrə isə 6.7% və 92.1% kimi olub.

İcmal ərzaq balansına əsasən 2016-cı ildə ölkədə formalaşmış ət və ət məhsullarının cəmi 16.2 min tonu yaxud 4.6 faizi emal sənayesinə, yəni ət məhsullarının (kolbasa məmulatlarının) istehsalına sərf edilib. Bu istiqamətdə sərf olunan ətin 14.9 min tonu mal əti, 1.2 min tonu donuz əti və yalnız 63 tonu quş ətindən ibarət olub. İl ərzində formalaşmış ümumi ət ehtiyatının 342.1 min tonu (93.6%-i) ərzaq məhsulu kimi (emal edilmədən) əhalinin istehlakına istifadə olunub.

***<u>Ölkədə ət və ət məhsullarının ümumi istehsal dinamikası.</u>*** İcmal ərzaq balanlarının məlumatlarına əsasən 2011-2016-cı illər dövründə ölkəmizdə bütün növ ət və ət məhsullarının ümumi istehsal həcmində mütəmadi artımlar qeydə alınıb (*diaqram 5*).




**Diaqram 5. Azərbaycanda bütün növ ət və ət məhsullarının (balıq və balıq məhsulları istisna olmaqla) ümumi istehsal həcminin dinamikası**

Ölkədə ət və ət məhsulları istehsalının ümumi həcmi 2011-ci ildə 254.9 min ton olmuşdusa, 2016-cı ildə 302.2 min tona yüksəlib, yəni 18.6% artım baş verib.

***Ət və ət məhsullarının idxalı***. İcmal ərzaq balanlarının məlumatlarına əsasən 2011-2015-ci illər dövründə ölkəmizə ət və ət məhsullarının illik idxal həcmi ildən-ilə azaldığı halda, 2016-cı ildə kəskin artım baş verib (*diaqram 6*).




**Diaqram 6. Bütün növ ət və ət məhsullarının (balıq və balıq məhsulları istisna olmaqla) illik ümumi idxal həcminin dinamikası (min ton)**

Diqaram 6-dan göründüyü kimi, ölkəmizə ət və ət məhsullarının idxalının miqdarı 2011-ci ildəki 38.7 min tondan 2015-ci ildə 17.6 min tonadək düşmüşdüsə (2.2 dəfə azalma), 2016-cı ildə isə 2011-ci il səviyyəsini də ötərək 41.7 min ton səviyyəsinə yüksəlib, yəni 2015-ci illə müqayisədə 2.4 dəfə artıb. DSK-nın məlumatlarına əsasən, 2016-cı ildə ölkəyə idxal olunan ət və ət məhsullarının 60.5%-i quş əti və onun məhsulları, 22.1%-i mal əti və onun məhsulları, 14.9%-i donuz əti və məhsulları, qalan 2.4%-i isə qoyun və keçi əti və bunların məhsulları olub (*bax: cədvəl 1-in məlumatları*).

DSK-nın məlumatlarına görə 2016-cı ildə ümumi ət və ət məhsulları üzrə Azərbaycanın idxaldan asılılıq səviyyəsi 12.1% olub ki, bu da əvvəlki illə (5.6%) müqayisədə 2 dəfədən çox artım deməkdir. İdxaldan ən yüksək asılılıq səviyyəsi donuz əti və onun məhsulları üzrə qeydə alınıb: 93.0% (*diaqram 7*).




**Diaqram 7. 2016-cı ildə ət və ət məhsullarının idxalından asılılıq səviyyəsi**

Quş əti və onun məhsulları üzrə idxaldan asılılıq səviyyəsi 2016-cı ildə 20.9% səviyyəsində olub. Bu, təqribən 2011-ci il səviyyəsinə (20.3%) uyğundur. Halbuki, 2011-ci ildən sonrakı dövrdə quş əti və onun məhsullarının idxalından asılıq səviyyəsi tədricən azalmış və 2015-ci ildə cəmi 1.4% təşkil etmişdi.

Burada qeyd etmək zəruridir ki, ölkəyə diri halda idxal olunan mal-qaranın əksər hissəsi məhz ətlik məqsədinə yönəldilir, amma yuxarı verilən asılılıq göstəricilərində bu nəzərə alınmayıb.

***Ət və ət məhsullarının ixracı.*** 2016-cı ildə ölkədən cəmi 134 ton ət və ət məhsulları (illik istehsalının 0.04%-i qədər) ixrac olunub ki, bunun da 132 tonu iribuynuzlu heyvan əti və məhsulları, 2 tonu isə qoyun və keçi əti olub.

2007-2016-cı illər üzrə bütün növ mal-qara və quş ətinin ehtiyatları və istifadəsi üzrə DSK-nın tərtib etdiyi balansın[7] məlumatlarına əsasən, 2012-ci ildən sonrakı dövrdə Azərbaycandan ət və ət məhsulları ixracı ildən-ilə azalmağa meylli olub (*diaqram 8*).




**Diaqram 8. Bütün növ ət və ət məhsullarının (balıq və balıq məhsulları istisna olmaqla) illik ümumi ixrac həcminin dinamikası (min ton)**

Həmin məlumatlara əsasən, 2007-2012-ci illər dövründə ölkədən ət və ət məhsulları ixracı təqribən 1200-1800 ton aralığında dəyişib, amma heç vaxt 1200 tondan aşağı olmayıb, amma 2012-ci ildən sonrakı dövrdə ildən-ilə ixracın azalması baş verib: 2016-cı ildə ölkədən 2012-ci olduğundan 13.8 dəfə az ət və ət məhsulu ixrac olunub.

Amma ərzaq balanslarında verilən bu məlumatlar DSK-nın xarici ticarət əlaqələrinin əmtəə strukturu ilə bağlı verdiyi məlumatlarla uyğun gəlmir. Belə ki, ixracın əmtəə strukturu ilə bağlı DSK-nın məlumatlarına əsasən ölkədən ət və əlavə ət qida məhsulları ixrac həcmi 2013-cü ildə 0.0 min, 2014-cü ildə 172.4 min, 2015-ci ildə 20.0 min, 2016-cı ildə isə 57.7 min ABŞ dolları məbləğində olub[8].

Xarici ticarət əlaqələrinin əmtəə strukturu ilə bağlı DSK-nın məlumatlarına əsasən son illər Azərbaycandan diri heyvan ixracının artması müşahidə olunur: 2012-ci ildə belə ixracın məbləği 26.5 min dollar olduğu halda, 2016-cı ildə 557.8 min dollara yüksəlib, yəni 21.0 dəfəlik artım baç verib (*diaqram 9*).




**Diaqram 9. Azərbaycandan diri heyvan ixracının (dəyər ifadəsində) dinamikası, min ABŞ dolları (mənbə: DSK)**

[7] https://www.stat.gov.az/source/food_balances/
[8] https://www.stat.gov.az/source/trade/

Artıq yuxarıda qeyd etdiyimiz kimi, ölkə əhalisinin və yerli emal müəssisələrinin mal-qara və quş ətinə və bunların məhsullarına olan tələbatının mühüm bir hissəsi idxal hesabına ödənilir. Ölkəmizə həm diri hevan və quşlar, həm bunlrın əti və qida üçün yararlı ət əlavələri, həm də ət emalı məhsulları idxal olunur.

***Diri heyvan və quş idxalı***. DSK-nın məlumatlarına əsasən[9] 2016-cı ildə ölkəmizə ümumilikdə 22.8 milyon ABŞ dolları dəyərində 27.3 min baş iribuynuzlu diri heyvan idxal olunub. Bunun təqribən 10.3 min başı Ukraynadan, 6.4 min başı Rusiya Federasiyasından, 4.9 min başı Gürcüstandan, 3.0 min başı Avstriyadan, 1.5 min başı isə Almaniyadan gətirilib. Yeri gəlmişkən, bu heyvanların az bir hissəsi damazlıq məqsədləri üçün, qalanı isə ətlik istiqamətində istifadə olunur.

Müqayisə üçün qeyd edək ki, DSK-nın məlumatlarına əsasən, 2015-ci ildə ölkəmizə 45.1 min baş (təqribən 42 milyon ABŞ dolları dəyərində), 2014-cü ildə 101.2 min baş (37.3 milyon ABŞ dolları dəyərində), 2013-cü ildə isə 133.8 min baş (31.9 mln. ABŞ dolları dəyərində) iribuynuzlu diri heyvan gətirilib. İdxal olunan belə heyvanların 2013-cü ildə 81.8%-i, 2014-cü ildə isə 53.7%-i Gürcüstandan gətirilib. 2015-ci ildə isə belə idxalın yarısı Rusiya federasiyasının payına düşüb.

2016-cı ildə ölkəmizə 2.6 milyon ABŞ dolları dəyərində 3.1 milyon ədəd diri ev quşu idxal olunub. Bunun 1.6 milyon ədədi (51.6%-i) Türkiyədən, 950.8 min ədədi (30.9%-i) İrandan, 115.4 min ədədi (3.8%-i) Macarıstandan, 105.0 min ədədi (3.4%-i) isə Gürcüstandan gətirilib. Fransa, Rusiya, Danimarka, Almaniya və Böyük Britaniya kimi ölkələrdən də diri ev quşları idxal etmişik. Bunu da qeyd etmək vacibdir ki, 2016-cı ildə ölkəyə idxal olunan diri ev quşlarının 98.9%-i çəkisi 185 q-dan artıq olmayan toyuqlar (cücələr) olub (*bax: Əlavə 2*)

Bunlardan başqa, 2016-cı ildə ölkəmizə təqribən 3 milyon ABŞ dolları dəyərində 67.4 min ədəd qoyun və keçi idxal olunub (*bax: Əlavə 1*)

***Heyvan əti və quş əti idxalı.*** DSK-nın məlumatlarına əsasən, 2016-cı ildə ölkəmizə 13.8 milyon ABŞ dolları dəyərində təqribən 5.3 min ton iribuynuzlu heyvan əti idxal olunub. Müqayisə üçün qeyd edək ki, idxal edilən bu cür ətin miqdarı 2014-cü ildə 4.4 min, 2015-ci ildə isə 5.1 min ton olub. 2016-cı ildə idxal olunan belə ətin hər tonu 2621.3, 2015-ci ildə 2154.4, 2014-cü ildə isə 2236.2 ABŞ dollarına başa gəlib.

DSK-nın məlumatlarına görə, 2016-cı ildə idxal olunan iribuynuzlu heyvan ətinin 86.8%-i Ukraynadan gətirilib. Sonrakı yerlərdə Hindistan (5.5%-i) və Braziliya (2.6%-i) gəlir (*cədvəl 3*).

**Cədvəl 3**

**2016-cı ildə iribuynuzlu heyvan əti və ev quş əti idxalı (ölkələr üzrə)**

| Mallar | Ölkələr | Miqdarı (ton) | Məbləği, min ABŞ dolları | *1 ton ətin idxal qiyməti (ABŞ dolları)** |
|---|---|---|---|---|
| **İribuynuzlu heyvan əti** | **Cəmi** | **5257,9** | **13782,6** | ***2621,3*** |
| | • Ukrayna | 4565,5 | 10651,0 | *2332,9* |
| | • Hindistan | 287,0 | 564,5 | *1966,9* |
| | • Braziliya | 135,0 | 726,2 | *5379,3* |
| | • Moldova Respublikası | 118,5 | 293,5 | *2476,8* |
| | • Paraqvay | 76,0 | 533,0 | *7013,2* |
| | • Niderland | 21,0 | 312,3 | *14871,4* |
| | • ABŞ | 12,8 | 206,3 | *16117,2* |
| | • Digər ölkələr | 42,1 | 495,8 | *11776,7* |
| **Quş əti və onun əlavə məhsulları** | **Cəmi** | **24435,4** | **20366,9** | ***833,5*** |

[9] https://www.stat.gov.az/source/trade/

| | | | |
|---|---|---|---|
| • ABŞ | 9691,2 | 7021,5 | *724,5* |
| • Braziliya | 5406,4 | 5125,7 | *948,4* |
| • Ukrayna | 5036,7 | 4780,2 | *949,1* |
| • Türkiyə | 3129,9 | 1825,1 | *583,1* |
| • Kanada | 343,0 | 251,0 | *731,8* |
| • Rusiya Federasiyası | 232,3 | 393,3 | *1693,1* |
| • Çin | 198,9 | 278,0 | *1397,7* |
| • Argentina | 111,7 | 91,3 | *817,4* |
| • Macarıstan | 78,5 | 103,7 | *1321,0* |
| • Digər ölkələr | 206,8 | 497,1 | *2403,8* |

(*** - ulduzlu sütünda olan məlumatlar digər 2 sütünda olan məlumatlar əsasında tərəfimizdən hesablanıb**) **Mənbə: DSK,** https://www.stat.gov.az/source/trade/)

Yuxarıdakı cədvəldən göründüyü kimi, Ukraynadan alınan hər ton ət 2.3 min ABŞ dollarına, Hindistandan gətirilən ətin hər tonu 2.0 min dollara, braziliyadan gətirilən ətin hər tonu isə 5.4 min tona başa gəlib. 2016-cı ildə ölkəmizə ABŞ-dan hər tonu 16.1 min ABŞ dollarına olmaqla 12.8 ton, Niderlanddan hər tonu 14.9 min dollara olmaqla 21.0 ton, Paraqvaydan isə hər tonu 7.0 min manata olmaqla 76.0 ton iribuynuzlu heyvan əti daxil olub.

DSK-nın məlumatlarına əsasən aparılan araşdırmalarımız göstərir ki, son illər 2011-2015-ci illər dövründə ölkəmizə idxal olunan iribuynuzlu heyvan ətinin əsas tədarükçüsü Hindistan olub. Belə ki, 2011-ci ildə ölkəmizə gəririlən 5.6 min ton belə ətin 5.4 min tonu (96.4%-i), 2012-ci ildə 3.9 min tonun 3.5 min tonu(89.7%-i), 2013-cü ildə 5.1 min tonun 3.2 min tonu (62.7%-i), 2014-cü ildə 4.4 min tonun 3.0 min tonu (68.2%-i), 2015-ci ildə isə 5.1 nin tonun 2.6 min tonu 51%-i) Hindistanın payına düşüb. Hindistandan gətirilən ət hər zaman ölkəyə idxal olunan ətlərin ən ucuzu olub (hər tonu illər üzrə 1.6 - 2 min dollar arasında dəyişib). 2013-cü ildən başlayaraq iribuynuzlu heyvan ətinin idxalında Ukraynanın mövqeyi güclənməyə başlayıb: oradan ölkəmizə 2013-cü ildə 1.8 min ton (belə ümumi idxalın 35.3%-i), 2014-cü ildə 1.1 min ton (25%-i), 2015-ci ildə 2.0 min ton (39.2%-i), 2016-cı ildə isə 4.6 min ton (86.8%-i) ət gətirilib.

2016-cı ildə ölkəmizə 20.4 milyon ABŞ dolları dəyərində 24.4 min ton quş əti və onun əlavə məhsulları idxal olunub. DSK-nın məlumatlarına əsasən, 2013-cü ildə ölkəyə cəmi 2.6 min ton, 2014-cü ildə 9.2 min ton, 2015-ci ildə isə 7.4 min ton quş əti və onun əlavə məhsulları gətirilib: 2015-ci illə müqayisədə 2016-cı ildə bu sahədə idxal 3.3 dəfə artıb.

2016-cı ildə idxal olunan quş ətinin 21.95 min tonu (89.8%-i) 020714 mal kodu, yəni ev toyuqlarının hissələrə ayrılmış əti və əlavə məhsulları (dondurulmuş) üzrə, 2.19 min tonu (8.9%-i) isə 020712 mal kodu, yəni ev toyuqlarının hissələrə ayrılmamış əti (*dondurulmuş*) üzrə qeydə alınıb (*bax: əlavə 2*).

2016-cı ildə idxal olunan quş ətinin 9.7 min tonu (39.8%-i) ABŞ-dan, 5.4 min tonu (22.1%-i) Braziliyadan, 5.0 min tonu (20.5%-i) Ukraynadan, 3.1 min tonu (12.7%-i) isə Türkiyədən gətirilib. Bundan başqa Kanada, Rusiya Federasiyası, Çin, Argentina, Macarıstan və başqa ölkələrdən də quş əti idxal olunur (*bax: cədvəl 3*). 2016-cı ildə idxal olunan quş ətinin hər tonu orta hesabla 833.5 ABŞ dollarına başa gəldiyi halda, ABŞ-dan gətirilən belə ət 724.5, Braziliya və Ukraynadan təqribən 949, Türkiyədən 583.1 dollara daxil olub. Rusiya (hər tonu 1693.1 dollar), Çin (1397.7 dollar) və Macarıstandan (1321.0 dollar) gətirilən quş ətinin hər tonu daha baha olub.

Son illər ölkəmizə quş ətinin əsas tədarükçüsü hər zaman ABŞ olub: ölkəyə idxal olunan quş ətinin 2011-ci ildə 62.9%-i, 2012-ci ildə 65.7%-i, 2013-cü ildə 69.2%-i, 2014-cü ildə 53.3%-i, 2015-ci ildə isə 54.1%-i onun payına düşüb.

DSK-nın məlumatlarına əsasən, iribuynuzlu heyvan və quş ətindən əlavə, 2016-cı ildə ölkəmizə 1.97 milyon ABŞ dolları dəyərində 1413 ton donuz əti, 158.5 ABŞ dolları

dəyərində 81.2 ton qoyun və keçi əti, 180.5 min ABŞ dolları dəyərində əlavə heyvan mənşəli qida məhsulları idxal olunub (*bax: Əlavə 1*)

***<u>Kolbasa və digər analoji məhsulların idxalı</u>***. DSK-nın məlumatlarına əsasən, son illər ölkəmizə ətdən və əlavə ət məhsullarından hazırlanan kolbasalar və digər analoji məhsulların idxalı həcmləri artmaqdadır. 2016-cı ildə belə idxalın həcmi 1.9 min ton olub ki, bu da 2012-ci ildə olduğundan 2.9 dəfə, 2015-ci ildəki ilə müqayisədə isə 74.2% çoxdur (diaqram 10).




**Diaqram 10. Azərbaycana ət kolbasaları və digər analoji məhsulların idxalı dinamikası, ton (mənbə: DSK, https://www.stat.gov.az/source/trade/ )**

2016-cı ildə ölkəyə idxal olunan kolbasa məmulatlarının 1246.3 tonu yaxud 65.3%-i Rusiyadan daxil olub (*cədvəl 4*). Bu məhsulların Azərbaycana əsas tədarükçüsü hər zaman Rusiya olub: bu məhsulların idxalının 2012-ci ildə 41.7%-i, 2013-cü ildə 40.6%-i, 2014-cü ildə 39.8%-i, 2015-ci ildə isə 36.2%-i onun payına düşüb.

**Cədvəl 4**

**Ölkələr üzrə ət kolbasası və digər analoji məhsullar idxalı**

| | Miqdar (ton) | Məbləğ (min ABŞ dolları) | 1 tonun orta qiyməti (dollar)* |
|---|---|---|---|
| **Cəmi** | **1918,4** | **6887,9** | **3590,4** |
| Rusiya Federasiyası | 1246,3 | 4396,2 | 3527,4 |
| Almaniya | 268,6 | 969,4 | 3609,1 |
| Belarus | 181,4 | 721,6 | 3977,9 |
| Türkiyə | 118,0 | 465,8 | 3947,5 |
| Polşa | 32,7 | 72,0 | 2201,8 |
| Braziliya | 20,3 | 22,4 | 1103,4 |
| ABŞ | 19,6 | 28,3 | 1443,9 |
| Lüksemburq | 12,1 | 117,5 | 9710,7 |
| **Digər ölkələr** | 19,4 | 94,7 | 4881,4 |

(*** - ulduzlu sütünda olan məlumatlar digər 2 sütünda olan məlumatlar əsasında tərəfimizdən hesablanıb**) **Mənbə: DSK,** https://www.stat.gov.az/source/trade/)

Son illər bu məhsullar üzrə ölkə bazarında Rusiyadan başqa Almaniya, Türkiyə, Polşa və ABŞ-ın məhsulları da hər zaman olub. 2016-cı ildə isə bu bazara həm də Belarus, Braziliya, Lüksenburq və başqa ölkələrin oxşar məhsulları daxil olub. Başqa sözlə, bu məhsullar bazarında tmsil olunan xarici ölkə məhsulları getdikcə artır.

DSK-nın məlumatları əsasında aparılan hesablamalar göstərir ki, 2016-cı ildə belə məhsulların hər tonu ölkəmizə orta hesabla 3590.4 ABŞ dollarına idxal olunub. İdxal olunan kolbasa məmulatlarının ən ucuzu Braziliyadan (hər tonu 1103.4 ABŞ dollarına), ən bahalısı isə Lüksemburqdan (9710.7 ABŞ dollarına) gətirilən olub.

DSK-nın məlumatlarına əsasən aparılan hesablamalar göstərir ki, ölkəmizə idxal olunan ətdən və əlavə ət məhsullarından hazırlanan kolbasalar və digər analoji məhsulların hər tonunun idxal qiyməti 2015-ci illə (hər tonu 1796.4 dollara) müqayisədə 2016-cı ildə (hər tonu 3590.4 dollara) 2 dəfə artıb (*diaqram 11*).




**Diaqram 11. Ət kolbasaları və digər analoji məhsulların 1 tonunun orta idxal qiyməti, ABŞ dolları (DSK-nın məlumatları əsasında hesablanıb)**

Yuxarıdakı (11-ci) diaqramdan göründüyü kimi, idxal olunan kolbasa və analoji məhsullaırn hər tonunun idxal qiymətində 2005-2013-cü illər dövründə tədrici yaksəlmə, 2014-cü və 2015-ci illərdə azalma, 2016-cı ildə isə kəskin artım baş verib.

Kolbasalar və digər analoji məhsullardan başqa 2016-cı ildə ölkəmizə həm də 4.67 milyon ABŞ dolları dəyərində 1594.6 ton ətdən, ət əlavələrindən və ya qandan hazırla-nan hazır və ya konservləşdirilmiş digər məhsullar idxal olunub.

***Ölkədə ət istehsalı***. DSK-nın məlumatına əsasən 2016-cı ildə ölkədə sənaye üsulu ilə ümumilikdə 288.8 min ton ət istehsal edilib ki, bunun 127.6 min tonu (44.2%-i) mal əti, 74.6 min tonu (25.8%-i) qoyun və keçi əti, 86.1 min tonu (29.8%-i) quş əti və 0.5 min tonu (0.2%-i) isə donuz əti olub.

2010-cu ildən bəri Azərbaycanda ət istehsalının davamlı olaraq artması müşahidə olunsa da bu, (yalnız 2012-ci il istisna olmaqla) çox kiçik templərlə baş verir: 2010-cu illə müqayisədə 2016-cı ildə ümumi ət istehsalı 17.1% artıb (*diaqram 12*).




**Diaqram 12. Azərbaycanda sənaye üsulu ilə ət istehsalının dinamikası, cəmi, min tonla (mənbə: DSK)**

DSK-nın məlumatları göstərir ki, bu dövr ərzində ət istehsalındakı belə sabit davamlı artım dinaikası əsasən ətin çox hissəsini təşkil edən mal əti istehsalının hesabına olub: 2010-cu illə müqayisədə 2016-cı ildə mal əti istehsalı 16.0% artıb (*cədvəl 5*).

**Cədvəl 5**

**2010-2016-cı illərdə Azərbaycanda ət istehsalının tərkibi və dinamikası (sənaye üsulu ilə), min ton**

| | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|---|---|
| **Ət, cəmi** | 246.6 | 253.4 | 272.8 | 273.8 | 278.1 | 285.0 | 288.8 |
| • mal əti | 110.0 | 115.2 | 117.2 | 117.7 | 119.2 | 126.2 | 127.6 |
| • qoyun əti | 71.3 | 69.3 | 69.9 | 70.4 | 68.2 | 70.3 | 74.6 |
| • donuz əti | 0.8 | 0.7 | 0.7 | 0.7 | 0.7 | 0.7 | 0.5 |
| • quş əti | 64.5 | 68.7 | 85.0 | 85.0 | 90.0 | 87.8 | 86.1 |

**(Mənbə: DSK, https://www.stat.gov.az/source/industry/ )**

Quş əti istehsalı 2010-cu ildəki 64.5 min tondan 2014-cü ildə 90.0 min tona yüksəlsə də (39.5%-lik artım), sonradan azalıb və 2016-cı ildə 86.1 min ton (2014-cü illə müqayisədə 4.3%-lik azalma) olub.

2010-2016-cı illər dövründə ölkədə qoyun və keçi əti istehsalı 71.3 min tondan 74.6 min tona yüksəlib, yəni cəmi 3.3 min ton yaxud 4.6% artıb. Eyni dövrdə donuz əti istehsalı isə 37.5% azalıb.

Bunu da qeyd etməliyik ki, DSK-nın başqa bir məlumatına görə, bütün təsərrüfat kateqoriyaları (ev təsərrüfatları da nəzərə alınmaqla) nəzərə alınmaqla, 2016-cı ildə ölkədə ümumilikdə 302.2 min ton ət istehsal edilib ki, bunun da 131.0 min tonu mal əti, 95.5 min tonu quş əti, 75.2 min tonu qoyun və keçi əti olub[10].

***<u>Ölkədə kolbasa və kolbasa məmulatlarının istehsalı</u>***. DSK-nın məlumatlarına əsasən 2016-cı ildə ölkədə 13.3 min ton kolbasa məmulatları istehsal olunub: bu, 2015-ci ildə olan istehsaldan 8330 ton yaxud 2.8 dəfə çoxdur. DSK-nın məlumatlarına görə 2010-2014-cü illər dövründə ölkədə kolbasa məmulatlarının istehsalı ildən-ilə tədricən artıb və 2123 tondan 6637 tona yüksəlib, yəni 5 ildə 3.1 dəfə artıb (diaqram 13).




**Diaqram 13. Azərbaycanda kolbasa məmulatlarının istehsalı dinamikası, ton (mənbə: DSK,** https://www.stat.gov.az/source/industry/ , "*21.1 Qida məhsullarının istehsalı ilə məşğul olan müəssisələrin işinin əsas göstəriciləri" cədvəli*)

Lakin, diaqram 13-dən göründüyü kimi, 2015-ci ildə kolbasa məmulatları istehsalının həcmi 2015-ci illə müqayisədə 1667 ton yaxud 25.1% azalıb. 2016-cı ildə isə kəskin artım baş verib. 2016-cı ildə ölkədə kolbasa və kolbasa məhsullaırnın istehsalı ilə bağlı yeni istehsal güclərinin istifadəyə verilmədiyi bir şəraitdə belə kəskin artım bir qədər şübhə doğurduğundan DSK-nın digər məlumatlarını araşdırmaq zərurəti yarandı. Belə araşdırma zamanı bəlli oldu ki, DSK-nın saytında "Sənaye" bölməsinin ayrı-ayrı statistik cədvəllərində ümumən ölkədə və ölkənin ayrı-ayrı regionlarında kolbasa məmulatlarının istehsal həcmləri haqqında olan məlumatlarda ciddi kənarlaşmalar müşahidə olunur.

[10] https://www.stat.gov.az/source/agriculture/

Belə ki, “Mühüm növ sənaye məhsullarının natura ifadəsində istehsalı (region bölgüsündə)” adlı cədvəlində ölkənin regionları üzrə kolbasa məmulatlarının istehsal həcmləri aşağıdakı cədvəldəki (bax: *cədvəl 6*) kimi verilib.

**Cədvəl 6**

**Kolbasa və kolbasa məmulatlarının istehsalı, ton**

| | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|---|---|
| Bakı şəhəri | 998.0 | 947.1 | 844.8 | 734.6 | 662 | 718.6 | 1991 |
| Gəncə şəhəri | 44.6 | 85.8 | 61.4 | 62.7 | 66.9 | 67.3 | 15.5 |
| Abşeron rayonu | 265.0 | 467.3 | 600.8 | 565.4 | 455 | 535.4 | 1306 |
| Göygöl rayonu | 11.2 | 10.5 | 11.1 | 7 | 4.4 | 5.6 | 7.4 |
| Naxçıvan MR | - | 24.1 | 25.7 | 8.9 | - | - | 6.0 |

(Mənbə; DSK, https://www.stat.gov.az/source/industry/ , “*39. Mühüm növ sənaye məhsullarının natura ifadəsində istehsalı (region bölgüsündə*” *cədvəli*)

Bu cədvəldə hər il üzrə ayrı-ayrı bölgələrdə istehsal olunan kolbasa məmulatlarının miqdarını topladıqda 13-cü diaqramdakı (yaxud 21.1 cədvəlindəki) məlumatlardan kəskin fərqli məlumatlar alınır. Bu kənarlaşmaları aşağıdakı diaqramdan izləmək olar.




**Diaqram 14. DSK-nın 2 ayrı cədvəlində kolbasa istehsalı həcmləri haqqında məlumatlarda kənarlaşmalar**

DSK-nın 2 ayrı cədvəlində olan məlumatlar əsasında hazırlanmış 14-cü diaqramdan görünür ki, 2010-2016-cı illər dövrünün bütün illərində kolbasa məmulatlarının istehsal həcmləri ilə bağlı göstəricilərdə fərq var, hətta 2012-2016-cı illərdə bu kənarlaşmalar 3-4 dəfə ilə ölçülə bilir. Bu məlumatlara əsasən, 2010-2015-ci illər dövründə ölkədə illik kolbasa məmulatları istehsalının həcmi hər zaman 1.3 - 1.5 min ton civarında olub. Bu məlumatlara əsasən, 2016-cı ildə kolbasa məmulatlarının istehsal həcmi 3326 ton olub ki, bu da 2015-ci illə müqayisədə 1999 ton, yaxud 2.5 dəfə çoxdur. Bu 2 mənbədə 2016-cı il üzrə kolbasa məmulatları istehsalının həcmində təqribən 10 min tonluq fərq var.

“Sənaye” bölməsində olan “Regionların sənayesi” altbölməsində ayrı-ayrı iqtisadi və inzibati rayonlar üzrə sənaye məhsullarının istehsal həcmləri ilə bağlı statistik cədvəllərdən kolbasa məmulatları istehsalına aid məlumatları izlədikdə, yalnız Naxçıvan MR üzrə məlumatlar (habelə Gəncə şəhəri ürə 2016-cı ilin məlumatdakı yanlışlıq) istisna olmaqla, digər şəhər və rayonlar üzrə məlumatlar 6-cı cədvəlin məlumatları ilə üst-üstə düşdüyü görünür. Naxçıvan MR üzrə kolbasa məmulatlarının illik istehsal həcmləri haqqında məlumatlarda da bu 2 mənbədə kəskin kənarlaşmalar mövcuddur.

DSK-nın məlumatlarından (bax: *cədvəl 6*) ölkədə kolbasa məmulatlarının istehsalı əsasən Bakı şəhərində və Abşeron rayonunda (Xırdalan şəhərində) cəmlənib: 2016-cı ildəki 3326 ton kolbasa məmulatının 99.1 %-i burada istehsal olunub. Bundan əlavə, Gəncə şəhərində, habelə Göygöl rayonunda və Naxşıvan MR-da kolbasa məmulatları istehsal edən müəssisələr fəaliyyət göstərir. nın istehsalı

***Yerli kolbasa və kolbasa məmulatları istehsalçıları***. Ət və ət məhsulları istehsalçıları Assosiasiyasından[11] əldə etdiyimiz məlumata görə, hazırda ölkəmizdə bu sektorda irili-xırdalı 20-dək firma fəaliyyət göstərir (o cümlədən 4-ü Naxçıvan MR-da olmaqla). Amma DSK-nın statistik bülletenlərində və hesabatlarında ölkədə olan yerli istehsalçılar və onların istehsal həcmləri, bazar payları haqqında məlumatlar verilmir.

Tədqiqat zamanı ən müxtəlif mənbələri araşdırmaqla, internet üzərindən axtarmaqla bu sektorda fəaliyyət göstərən 14 firmanı müəyyən edə bildik. Bunların bəzilərinin özlərinə məxsus saytları var, bəziləri haqqında məlumatlar İqtisadiyyat Nazirliyinin hazırladığı "Azərbaycan sənayesi: şirkətlər, məhsullar" adlı kataloqa[12] daxil edilib.

Ölkənin kolbasa və kolbasa məmulatları istehsalı sektorunda fəaliyyət göstərən firmalar əsasən aşağıdakılardır:

**Bakı şəhərində olanlar**:

1. **"M&T" LTD firması (Hacı Turqay şirkəti) -** 100-ə yaxın çeşiddə kolbasa və kolbasa məmulatları istehsal edir. Məhsullaırnı Bakıda və Azərbaycanın bölgələrində **"Sevimli Dad"** firma mağazalar şəbəkəsi və iri marketlər vasitəsilə realizə edilir. (http://haciturqay.az ; https://www.sevimlidad.az/ )
2. **"Hakan Foods Azerbaican Trading Co Ltd" MMC** - 2001-ci ildən **"Kral"** markası altında kolbasa və digər kolbasa məmulatları istehsal edir. (http://hakanfoods.az/)
3. **"Orxan-SS" müəssəsi ("C.F.-Kristal" kolbasa istehsalı)**;
4. **"AL-SANA" MMC** - 2014-cü ilin dekabr ayından fəaliyyət göstərir. **"Payım"** brendinin istehsalçısıdır. (http://payim.az/)
5. **"Ovçular ət və ət məhsulları" MMC** - 1992-ci ildən Bakı şəhərində ət məhsullarının emalı üzrə ixtisaslaşmış müəssisə kimi fəaliyyət göstərir;

**Abşeron rayonunda (Xırdalan şəhərində) yerləşənlər**:

1. **"Səhliyalı" kiçik müəssisəsi** - 1996-cı ildə işə başlayıb. "**1000 bərəkət**, halal nemət" ət və ət məhsullarının istehsalçısıdır ( http://sahliyali.az/ )
2. **"Halal Dad" MMC** - 2010-cu ilin avqustunda təsis edilib;
3. **"Zəhmət-Ruzi" MMC-nin "Sab" şirkəti –** İki sahədə - ət və süd məhsullarının istehsalı sektorunda – çalışır ( www.sab.az **).**
4. **"Ay-Min" MMC** - **"Flaqman"** əmtəə nişanlı ət məhsulları istehsal edir;

**Gəncə şəhərində olanlar:**

1. **"Halal Qida" MMC** - 2008-ci ildə yaradılıb;
2. **"Elba" MMC** ("Elba 999" MMC) - 1999-cu ildən fəaliyyət göstərir. Şirkətin bir neçə rayonda filialları, o cümlədən Daşkəsəndə kəsim fabriki var.

**Naxçıvan MR-da fəaliyyət göstərənlər**:

1. **"Bərəkət Ət Məhsulları Kompleksi"** "Gəmiqaya Holdinq" Şirkətlər İttifaqına daxildir;
2. **"M/M" kolbasa məmulatları müəssisəsi** - Fiziki şəxsə məxsus müəssisədir;
3. **"Hilal" ət və ət məhsulları istehsalı müəssisəsi.**

---

[11] Azərbaycan Ət və Ət Məhsulları İstehsalçıları Assosiasiyası İctimai Birliyi 31 mart 2010-cu ildə rəsmi dövlət qeydiiyatdan keçib. 2015-ci ildən sonra fəaliyyətini bərpa edib. Hazırda Assosiasiyanın 10 daimi üzvü var.

[12] http://senaye.gov.az/az/senayeshme/publications/cataloq2014/

Bu firmaların istehsal həcmləri, bazar payları haqqında məlumatlar əlçatan olmadığından ölkənin kolbasa və kolbasa məhsulları bazarındakı firmalararası rəqabətin real vəziyyətini qiymətləndirmək mümkün olmur.

## 2. Sektorun inkişafının tənzimlənməsi sahəsində dövlət siyasəti

Ölkədə təsərrüfat fəaliyyətinin təşkili və tənzimlənməsi sahəsində mövcud ümumi qanunvericiliklə (Mülki Məcəllə, Vergi Məcəlləsi, Gömrük Məcəlləsi və s.) yanaşı bu sektorun fəaliyyətinin tənzimlənməsinə və inkişafına yönəlik hüquqi-normativ və proqram sənədlərinə aşağıdakıları aid etmək olar:

- **Yeyinti məhsulları haqqında** Azərbaycan Respublikasının Qanunu**,** 18 noyabr 1999-cu il № 759-IQ;
- **Baytarlıq haqqında** Azərbaycan Respublikasının Qanunu, 31 may 2005-ci il, № 922-IIQ;
- **Damazlıq heyvandarlıq haqqında** Azərbaycan Respublikasının Qanunu, 18 dekabr 2007-ci il, № 516-IIIQ;
- **Kənd təsərrüfatı kooperasiyası haqqında** Azərbaycan Respublikasının Qanunu, 14 iyun 2016-cı il.
- **"Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlı əlavə tədbirlər barədə"** Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 23 oktyabr tarixli 969 nömrəli Fərmanını
- **Kənd təsərrüfatı və ərzaq məhsulları bazarının fəaliyyətinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında** Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 16 yanvar 2014-cü il;
- **"Ərzaq məhsullarının tədarükü və təchizatı" Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında** Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 30 sentyabr 2016-cı il, №1048;
- **"Aqrar bölmədə lizinqin genişləndirilməsi sahəsində əlavə tədbirlər haqqında"** Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 23 oktyabr 2004-cü il,№ 468;
- **"Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında"** Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 23 yanvar 2007-ci il, №1907;
- **Heyvandarlığın cins tərkibinin yaxşılaşdırılmasına dövlət dəstəyi haqqında** Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 19 avqust 2015-ci il;
- **Heyvandarlığın inkişafına dövlət dəstəyinin gücləndirilməsi haqqında** Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 19 avqust 2015-ci il;
- **Azərbaycan Respublikasında qida təhlükəsizliyi sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında** Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 10 fevral 2017-ci il;
- **Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 12 aprel tarixli 80 nömrəli qərarı;
- "**Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 12 aprel tarixli 80 nömrəli qərarında dəyişikliklər edilməsi barədə** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 23 sentyabr tarixli 367 nömrəli qərarı;

- **Fitosanitar nəzarəti sahəsində bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 29 dekabr tarixli 280 nömrəli qərarı;
- **Yeyinti məhsullarına verilən uyğunluq, gigiyenik sertifikatlarının və baytarlıq şəhadətnaməsinin formasının və uyğunluq, gigiyenik sertifikatları-nın və baytarlıq şəhadətnaməsinin verilməsi qaydalarının təsdiq edilməsi haqqında** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 25 sentyabr 2007-ci il tarixli 142 saylı Qərarı;
- **"Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumla-rının dərəcələri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 22 aprel tarixli 91 nömrəli qərarında dəyişiklik edilməsi barədə** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 24 avqust tarixli 337 nömrəli qərarı;
- **“Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında** Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 27 fevral 2014-cü il;
- **2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı.** Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 25 avqust tarixli, 3004 nömrəli Sərəncamı ilə təsdiq edilib;
- **Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı.** Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 26 dekabr tarixli Sərəncamı ilə təsdiq edilib;
- **"Azərbaycan Respublikasında kənd təsərrüfatı kooperasiyasının inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı**"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 14 iyul 2017-ci il;
- **Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi.** Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilib və s..

*Yeyinti məhsulları haqqında azərbaycan Respublikasının Qanununa* (18 noyabr 1999-cu il) əsasən yeyinti məhsullarının keyfiyyəti və təhlükəsizliyi aşağıdakı yollarla təmin edilir maddə 4):

- yeyinti məhsullarının keyfiyyətinə və təhlükəsizliyinə dair tələblərin normalaşdırılması və təkmilləşdirilməsi;
- yeyinti məhsullarının sertifikatlaşdırılması;
- yeyinti məhsullarının dövlət gigiyena qeydiyyatı;
- yeyinti məhsullarının keyfiyyətinə və təhlükəsizliyinə dövlət nəzarəti.

Qanunun 9-cu maddəsinə əsasən, yeyinti məhsullarının istehsalının təşkili iki mərhələyə bölünür:

- yeyinti məhsulları istehsalı obyektlərinin layihələşdirilməsi, razılaşdırılması və inşası;
- yeyinti məhsullarının kütləvi istehsala hazırlanması, gigiyenik ekspertizası və dövlət reyestrində qeydiyyatı.

Yeyinti məhsullarının istehsalı müvafiq texnologiyalara, qüvvədə olan standartlar və tələblərə uyğun olaraq həyata keçirilir. Yeyinti məhsullarının istehsalında istifadə edilən bitki və heyvan mənşəli xammalın və qida əlavələrinin tərkibində zəhərli kimyəvi və dərman maddələrinin, bioloji, mikrobioloji və digər preparatların yol verilən norma hədləri müvafiq normativ sənədlərlə müəyyən olunur.

*2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair* Dövlət Proqramında (Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 25 avqust tarixli, 3004 nömrəli Sərəncamı ilə təsdiq edilib) bu sektorun inkişafı ilə bağlı 2015-ci il üçün aşağıdakı əsas hədəflər müəyyən edilmişdi:

- ət istehsalını 340 min tona çatdırılması;
- sənaye üsulu ilə illik quş əti istehsalının 80 min tona çatdırılması;
- yem bitkilərinin əkin sahələrinin 500 min hektara çatdırılması;
- yüksək keyfiyyətli, balanslaşdırılmış qarışıq yem istehsalının ildə 2 milyon tona çatdırılması.

Artıq əvvəlki bölmədə qeyd olunduğu kimi, DSK-nın məlumatına əsasən 2015-ci ildə ölkədə ət istehsalının ümumi həcmi 285 min ton olub ki, bu da Dövlət Proqramında qarşıya qoyulmuş hədəfdən 55 min ton az olub. Quş əti istehsalı sahəsində qoyulan hədəfə nail olunsa da (DSK-nın məlumatına əsasən 2015-ci ildə ölkədə sənaye üsulu ilə 87.8 min ton quş əti istehsal olunub), 2016-cı ildə ölkəyə quş ətinin idxalında kəskin artım müşahidə olunub. Dövlət Proqramında yem istehsalı üzrə müəyyən edilmiş hədəflərə isə nail olunmayıb.

Hazırda ölkədə heyvandarlığın inkişafı sahəsində aşağıdakı dövlət dəstəyi tədbirləri nəzərdə tutulur[13]:

- "Aqrolizinq" ASC tərəfindən idxal edilən cins malların dəyərinin 50 faizi büdcədən ödənilir və lizinq yolu ilə satılır;
- süni mayalanma yolu ilə alınan hər baş buzova görə 100 manat subsidiya verilir;
- süni mayalandırma xidməti üzrə infrastruktur dövlət tərəfindən təmin edilir;
- bütün növ kənd təsərrüfatı heyvanları və quşları arasında heyvanların xüsusi təhlükəli yoluxucu xəstəliklərinə (13 növ xəstəliyə) qarşı aparılan müalicə–profilaktika və diaqnostika tədbirləri dövlət tərəfindən təmin edilir.

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 26 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramında ölkə sənayesinin inkişafı və rəqabətqabiliyyətliliyinin artırılması istiqamətində tədbirlər nəzərdə tutulub. Lakin bu sənəddə ət məhsulları emalı və kolbasa məmulatlaırnın istehsalının inkişafı ilə bağlı xüsusi məsələlər əksini tapmayıb.

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi" təsdiq edilib. Bu Strateji Yol Xəritəsində 2-ci strateji hədəfin (Kənd təsərrüfatı məhsullarının istehsal potensialının dəyər zənciri üzrə artırılması) 2.2-ci prioriteti "İdxalı əvəz etmək potensialı olan kənd təsərrüfatı və emal sənayesi məhsulları istehsalının artırılmasının təşviqi" kimi müəyyən edilib və bu priroritet üzrə qarşıdakı dövrdə aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub:

- *Tədbir 2.2.1:* İntensiv ferma modeli əsasında iri heyvandarlıq komplekslərinin yaradılmasının təşviqi,
- *Tədbir 2.2.2:* Ətlik-südlük istiqamətli ailə-kəndli təsərrüfatlarının yaradılması ilə bağlı İmişli, Bərdə və Ağcabədi rayonlarında həyata keçirilən pilot layihənin təcrübəsinin digər regionlarda tətbiq edilməsi,
- *Tədbir 2.2.3:* Sənaye üsulu ilə quş əti istehsalının müxtəlif seqmentlərin tələbatları üzrə genişləndirilməsinin stimullaşdırılması,
- *Tədbir 2.2.4:* Regionlarda kiçik və orta ölçülü ət və süd məhsulları emalı müəssisələri şəbəkəsinin genişləndirilməsinin dəstəklənməsi[14].

Bundan başqa Strateji Yol Xəritəsində heyvandarlığın qarışıq qüvvəli yemlə təminatının yaxşılaşdırılması və damazlıq işinin inkişaf etdirilməsi prioritet (*Prioritet 4.6*) kimi,

---

[13] Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilib. səh. 37

[14] Yenə orada, səh. 69

kənd təsərrüfatı məhsulları üzrə bazar infrastrukturunun inkişafı və istehsalçıların bazarlara çıxışının asanlaşdırılması isə hədəf (*Strateji hədəf 6*) kimi müəyyən edilib.

## 4. Ət və ət məmulatlarının istehsalı sektorunun dəyər zənciri üzrə mövcud problemləri

Hazırda bu sektorun üzləşdiyi problemləri aşkarlanması üçün sektorun dəyər zəncirinin izlənilməsi və dəyər zəncirinin hər bir həlqəsi üzrə problemlərin müəyyən edilməsi vacibdir. Ət və ət məmulatları istehsalının dəyər zəncirini aşağıdakı şəkildəki (şəkil 1) kimi təsvir etmək olar. Burada sektorun dəyər zənciri və zəncirin hər bir həlqəsinin mümkün iştirakçıları qeyd olunub.




**Şəkil 1. Ət və ət məmulatları (o cümlədən kolbasa məmulatları) istehsalı sektorunda dəyər zənciri**

Şəkildən göründüyü kimi, ət və ət məmulatları istehsalının dəyər zənciri heyvandarlığın inkişafının ilkin bazasından başlanır və ət və kolbasa məmulatlarının pərakəndə satışı ilə başa çatır. Dəyər zənciri aşağıdakı həlqələrdən ibarətdir:

- heyvandarlığın ilkin bazası nəzərə alınmaqla ətlik heyvandarlıq (heyvanların bəslənməsi);
- diri heyvan satışı
- ətin kəsimi, emalı və kolbasa məmulatlarının istehsalı;
- bazarlama və satış.

***<u>Heyvandarlığın ilkin bazası və ətlik heyvanların bəslənməsi</u>***. Ət və ət məhsulları istehsalı sektorunun əsas xammal təminatçısı heyvandarlıqdır: dəyər zənciri heyvandarlığın ilkin bazasından və ətlik heyvanların bəslənməsindən başlayır. Araşdırma zamanı bu sektorda çalışan iş adamları ilə apardığımız söhbətlərdən də belə aydın oldu ki, sektorun üzləşdiyi problemlərin mühüm hissəsi məhz ölkədə ətlik heyvanların (iribuynuzlu və xırdabuynuzlu heyvanlar, donuz, quşlar və s.) bəslənməsi üçün mövcud ilkin bazadanın durumunda meydana çıxır.

Təsadüfi deyil ki, dünyada ət və ət məhsullarının istehsalında üstün mövqeyə malik ölkələrin hamısı ya heyvandarlıq üçün yararlı təbii otlaq və biçənəklərin çox olması (Avstraliya, Braziliya və s.), ya yem bitkilərinin əkilməsi üçün imkanların böyük olması (ABŞ, Braziliya və s.), ya da inkişaf etmiş logistika və liman infrastrukturuna malik olması (Hollandiya və s.) ilə xarakterizə olunur. Bundan başqa həmin ölkələr kənd təsərrüfatı sahəsində yüksək səviyyədə inkişaf etmiş elmi-tədqiqatlar bazasına malikdirlər. Onlarda fermerlərin təhsil səviyyəsi yüksək olmaqla yanaşı, ət istehsalı və emalı sahəsində qabaqcıl və yüksək məhsuldar texnologiyalar tətbiq olunur.

Azərbaycan xüsusilə iribuynuzlu heyvandarlıq sahəsində həm təbii otlaq, örüş və biçənək sahələrinin azlığı, həm yem bitkilərinin əkin sahələrinin az və qeyri-məhsuldar olması, həm yem idxalı üçün logistika imkanlarının məhdudluğu, həm də kənd təsərürfatının elmi bazasının zəif olması problemləri ilə üz-üzədir. Bu sahələrdə olan problemlər Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsində də əksini tapıb. Bu Strateji Yol Xəritəsində heyvandarlığın yem təminatı sahəsində aşağıdakı problemlər qeyd olunub[15]:

- *birincisi,* otlaqların və örüşlərin heyvan sürüləri ilə normadan artıq yüklənməsi nəticəsində ot örtüyü xeyli seyrəkləşmiş, qış otlaqlarının quru ot məhsuldarlığı 3-4 sentnerə qədər azalmışdır və otlaq sahələrinin yüksək səviyyədə eroziyaya uğraması prosesləri müşahidə olunur;
- *ikincisi,* çoxillik və birillik yem bitkilərinin əkin sahələri və biçənəklər məhsuldarlıq göstəricilərinin aşağı səviyyədə olması ilə xarakterizə olunur;
- *üçüncüsü,* silos, senaj və yem çuğundurundan ibarət sulu-şirəli yemlər olduqca az həcmdə istehsal edilir;
- *dördüncüsü,* heyvandarlıq təsərrüfatlarının qüvvəli yemə olan tələbatın böyük hissəsi idxal hesabına ödənilir: belə ki, 2015-ci ildə ölkədə cəmi 12.8 min ton qüvvəli yem istehsal olunduğu halda, 100 min tondan çox belə məhsul idxal olunub.

DSK-nın məlumatlarına əsasən, ölkədə birillik ot istehsalı həcmi 2005-ci illə (42.5 min ton) müqayisədə 2016-cı ildə (21.3 min ton) 2 dəfə azalıb, eyni dövrdə təbii və yaxşılaşdırılmış biçənəklərdə ot istehsalı 2.0 mln. toondan 1.7 mln. tona düşüb.

2016-cı ildə ölkəmizdə cəmi 1.6 min hektar sahədə silos və yaşıl yem üçün qarğıdalı əkilib və 70.1 min ton məhsul götürülüb: 2010-cu illə müqayisə əkin sahəsi 2 dəfə, məhsul istehsalı 4.5 dəfə artıb. Müqayisə üçün deyək ki, 1989-cu ildə Azərbaycanda silos və yaşıl yem üçün qarğıdalı əkinlərinin sahəsi 103.2 min hektar olub və il ərzində 991.7 min ton məhsul götürülüb. Yaxud 2016-cı ildə ölkəmizdə bütün təsərrüfat kateqoriyaları üzrə cmi 200 hektar sahədə kökümeyvəli yem bitkiləri əkilib və 3.2 min ton məhsul alınıb[16].

Mütəxəssislərin fikrincə, ölkənin heyvandarlıq və quşçuluq dənli bitkilərə tələbatının 2.5 milyon ton olmasına baxmayaraq, bunun yalnız yarısı hazırda terli istehsal hesabına ödənilə bilir[17].

Damazlıq heyvandarlıq sahəsində də ciddi problemlər mövcuddur. Məlum Strateji Yol Xəritəsində qeyd edilir ki, Kənd Təsərrüfatı Nazirliyinin məlumatlarına görə, 2012-ci ildə aparılan seçmə statistik müayinəyə əsasən ölkənin təsərrüfatlarında olan inəklərin 46,5 faizi cins və ya təkmilləşdirilmiş cins, 53,5 faizi yerli inəklərdir. Qoyunların isə 52,7 faizi cins və ya təkmilləşdirilmiş cins, 47,3 faizi isə yerli qoyunlardır. Yerli cinslər həm süd istehsalı, həm də ət istehsalı baxımından aşağı məhsuldarlığa malikdir[18].

---

[15] Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilib. səh. 26

[16] https://www.stat.gov.az/source/agriculture/

[17] http://www.respublica-news.az/index.php/iqtisadiyyat/item/7828-heyvandarl-gh-n-inkishaf-nda-yeni-maerhaelae

[18] Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilib. səh. 25

Son illərdə heyvandarlıq təsərrüfatlarında seleksiya-damazlıq işlərinin aparılması və heyvandarlığın cins tərkibinin yaxşılaşdırılması məqsədilə bir sıra tədbirlərin həyata keçirilməsinə (dövlət büdcəsi vəsaiti hesabına xarici ölkələrdən yüksək məhsuldarlığa malik damazlıq heyvanların idxalı, heyvanların süni mayalandırılması tədbirləri həyata keçirilməsi, Respublika Süni Mayalanma Mərkəzinin modernləşdirilməsi və s.) baxmayaraq, bu sahədə ciddi problemlər qalmaqda davam edir.

Heyvandarlığın baytarlıq, zootexniki və fitosanitar xidmətlərlə təminatı sahəsində də ciddi problemlər var. Məsələn, Strateji Yol Xəritəsində qeyd edilib ki, ölkədə mövcud olan 3,8 milyon baş şərti mal-qaraya effektiv baytarlıq xidməti göstərmək üçün 4400 baytar həkim tələb olunduğu halda, Dövlət Baytarlıq Nəzarəti Xidmətinin bütün strukturlarında 2600-ə yaxın baytar mütəxəssisi çalışır ki, bu da tələbatın təxminən 60 faizini ödəyir[19].

Hazırda ölkədə heyvandarlıq sahəsində fəaliyyət göstərən təsərrüfatların ölçüləri də çox kiçik olmaları ilə diqqəti cəlb edir. Belə ki, DSK-nın keçirdiyi 2015-ci il kənd təsərrüfatı siyahıyaalmasının nəticələrinə əsasən, ölkədə ümumi sayı 452.4 min olan iribuynuzlu heyvandarlıq təsərrüfatlarından 57.2%-i 1-4 baş, 29.5%-i 5-9 baş, 10.3%-i 10-19 baş, 2.6%-i 20-49 baş, 0.5%-i isə 50 baş və daha çox heyvan sayına malikdir. Ümumi sayı 188.3 min olan xırdabuynuzlu heyvandarlıq təsərrüfatlarının isə 4.8%-ində 1-4 baş, 14.4%-ində 5-9 baş, 25.4%-ində 10-19 baş, 34.2%-ində 20-49 baş, 12.9%-ində 50-99 baş, 4.9%-ində 100-199 baş, 2.4%-ində 200-499 baş, 0.7%-ində isə 500 baş və daha çox heyvan saxlanılır[20]. Göründüyü kimi, həm iribuynuzlu, həm də xırdabuynuzlu heyvanların bəslənməsi əsasən kiçik təsərrüfatlar formasında həyata keçirilir ki, bu da istehsalçıla-rın (fermerlərin və fərdi ev təsərrüfatlarının) müasir texnologiyalardan, zəruri baytarlıq, zootexniki və sair xidmətlərdən yararlanma, kifayət qədər yem bazasına malik olma imkanlarını, habelə zəruri maliyyə resurslarına əlçatanlığını məhdudlaşdırır.

Ölkədə heyvandarlığın ilkin bazası idxaldan çox asılıdır: artıq yuxarıda qeyd edildiyi kimi, damazlıq heyvanlar və yemin mühüm bir hissəsinin idxalı ilə yanaşı, heyvandarlıq üçün lazım olan texniki vasitələr, dərman preparatları, yem bitkiləri üçün gübrələr, hətta zəruri xidmətlərin (baytarlıq, zootexniki, aqronom və s.) bir hissəsi də idxal olunur. 2015-ci ildə baş verən manatın devalvasiyasından sonra bütün bunlar üzrə istehsalçıların xərcləri də artıb.

Yuxarıda qeyd edilən (amma tam siyahısı yalnız bunlardan ibarət olmayan) çoxsaylı problemlər üzündən ölkədə iribuynuzlu və xırdabuynuzlu heyvan sayı və ət istehsalı həcmləri həm çox yavaş artır, həm də ət istsehsalı baha başa gəlir. DSK-nın məlumatlarına əsasən, iribuynuzlu mal-qara üzrə heyvanların hər 100 kq-nın maya dəyəri 2010-cu ildə 213.8 manat olduğu halda, 2014-cü ildə 261.7 manat, 2016-cı ildə isə 342.3 manat olub[21]. Yəni 2010-cu illə müqayisədə 2014-cü ildə (4 il ərzində) maya dəyəri 22.2% artdığı halda, 2014-cü illə müqayisədə 2016-cı ildə (yəni 2 il ərzində) 30.8% artıb (*diaqram 15*).

---

[19] Yenə orada, səh 26-27

[20] Azərbaycan Respublikasında kənd təsərrüfatı kooperasiyasının inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı, Azərbaycan Respublikası Prezidentinin 14 iyul 2017-ci il tarixli Sərəncamı ilə təsdiq edilib

[21] https://www.stat.gov.az/source/agriculture/




**Diaqram 15. Heyvanların hər 100 kq çəki artımının maya dəyəri (manat) (mənbə: DSK)**

Diaqram 15-dən göründüyü kimi, qoyun və keçi ətinin istehsalında da oxşar meyl müşahidə olunur: bu heyvanların hər 100 kq çəki artımının maya dəyərində 2010-cu illə müqayisədə 2016-cı ildə 41.9% artım baş verib.

Quş əti istehsalının maya dəyərində isə, əksinə, azalma müşahidə olunur: 2010-cu illə müqayisədə 2016-cı ildə quş ətinin hər 100 kq-nın maya dəyəri 12 faiz aşağı düşüb. Bu, həm də quş ətinin böyük əksər hissəsinin (90 faizindən çoxunun) orta və iri broyler müəssisələrində istehsal edilməsi ilə bağlıdır.

***Diri heyvanların və heyvan ətinin topdansatışı***. Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsində qeyd olunur ki, ölkədə diri heyvanların və heyvan ətinin topdansatışı 23 şəhər və rayonundakı 36 bazarda həyata keçirilir. 10-u Bakı şəhərində və 3-ü Sumqayıt şəhərində fəaliyyət göstərən bu bazarlar ət kəsimi və satışı mərkəzləridir. Diri heyvanların ən böyük topdansatış bazarları isə İmişli, Ağcabədi, Bərdə, Göygöl, Salyan və Sabirabad rayonlarında yerləşir[22].

Diri heyvanların və heyvan ətinin topdansatışı sahəsində müşahidə olunan əsas problem müasir tələblərə və müvafiq standartlara uyğun ət kəsimi və satışı infrastrukturunun (ixtisaslaşdırılmış ət kombinatlarının, zəruri təchizatı olan ət kəsimi mərkəzləri, müvafiq logistika şəbəkəsi və s.) kifayət qədər inkişaf etməməsi, habelə yararsız və insan sağlamlığı üçün təhlükəli ətlərin, habelə qaçaqmalçılıq yolu ilə əldə edilən ətlərin emal müəssisələrinə daxil olmasının qarşısını ala biləcək mexanizmlərin yetərli olmamasıdır.

Daha bir problem ətin topdansatış qiymətləri ilə bağlıdır. DSK-nın məlumatlarına görə, 2010-cu illə müqayisədə 2016-cı ildə ölkədə iribuynuzlu mal-qaranın hər 100 kq çəki artımının maya dəyəri 60% artdığı halda, hər 100 kq belə ətin topdansatış qiyməti 39% yüksəlib, yəni maya dəyəri satış qiymətindən daha sürətlə artıb. Lakin bununla belə, ölkədə istehsal olunan iribuynuzlu mal-qara ətinin topdansatış qiyməti Hindistandan və Ukraynadan gətirilən ətin qiyməti ilə rəqabətə girə bilmir (bax: *cədvəl 3*). Yaxud, DSK-nın məlumatına əsasən 2016-cı ildə ölkədə ietehsal edilən quş ətinin hər tonu orta hesabla 2100 manata[23] satıldığı halda, idxal olunan quş əti və onun hissələrinin hər tonu orta hesabla təqribən 1300-1400 manata başa gəlib. Xüsusilə Türkiyə, ABŞ, Kanada, Ukrayna və Braziliyadan gətirilən quş əti və onun hissələri daha ucuz başa gəlib.

Belə vəziyyətdə ət emalı və kolbasa məmulatı istehsalçıları üçün idxal olunan ət daha cəlbedici olur. Yerli quş ətinin istehsalını stimullaşdırmaq məqsədi ilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 23 sentyabr tarixli 367 nömrəli qərarı ilə

---

[22] Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi, səh. 29

[23] https://www.stat.gov.az/source/agriculture/

ölkəyə idxal olunan quş əti və onun hissələrinin hər 1 kq üçün 1 ABŞ dolları miqdarında gömrük-idxal rüsumları təyin edilib. Bu, xüsusilə kolbasa istehsalında istifadə olunan quş ətinin və onun hissələrinin qiymətinin qalxmasına gətirib çıxarıb. Ölkədə kolbasa istehsalı sektorunda fəaliyyət göstərən sahibkarlarla söhbət zamanı onlar xüsusi olaraq vurğuladılar ki, hökumətin bu qərarından sonra yerli quş əti istehsalı müəssisələri də yerli quş ətinin topdansatış qiymətlərini qaldırıblar.

***Kolbasa və kolbasa məmulatlarının istehsalı***. Bütün yeyinti məhsullarının istehsalında olduğu kimi, kolbasa və kolbasa məmulatlarının istehsalının təşkili də əsas iki mərhələdən ibarətdir:

- kolbasa məmulatları istehsalı obyektlərinin layihələşdirilməsi, razılaşdırılması və inşası;
- kolbasa məmulatlarının müvafiq texnologiyalara və qüvvədə olan standartlara uyğun istehsalı, gigiyenik ekspertizası və satışı.

Sektora yeni müəssisələrin daxil olmasında hüquqi aspektdən xüsusi maneələr yoxdur: kolbasa məmulatlarının istehsalı xüsusi razılıq (lisenziya) tələb edən sahə deyil. Bununla belə, biznesin digər sahələrində olduğu kimi, burada da tikinti yerinin alınması, tikintiyə icazənin alınması, obyektin elektrik və digər xidmətlərə qoşulması ilə bağlı çətinliklər mövcuddur. Ölkədəki ümumi biznes mühitində olan bu problemləri uzun illərdir ki, Dünya Bankının "Biznesə başlama İndeksi" də xüsusi olaraq qabardır. Dünya Bankının bu yaxınlarda açıqladığı "Doing Business – 2018"-də Azərbaycan tikintiyə icazələrin alınmasına görə 161-ci, elektrik sisteminə qoşulması üzrə isə 102-ci sırada yer alıb[24]. Bu çətinliklərin aşılması və prosesin sürətləndirilməsi iş adamlarına əlavə xərclərə başa gəlir.

Kolbasa və kolbasa məmulatlarının istehsalı üçün lazım olan avadanlıqlar xaricdn alınır ki, bu da müəyyən məbləğdə maliyyə vəsaiti tələb edir. Ölkənin bank sektorunda son illər yaşanan böhranla əlaqədar iş adamlarının, xüsusilə yeni işə başlayan sahibkarların kredit və başqa formalarda maliyyə vəsaitləri əldə edə bilmə imkanları ciddi şəkildə məhdudlaşıb. Bununla yanaşı valyuta rejimində tətbiq edilən sərtliklər də maliyyə məhdudiyyətləri problemini bir qədər də ağırlaşdırır.

İstifadə edilən ətin növündən asılı olaraq kolbasalar ayrıca qaramal, donuz və quş ətindən, habelə göstərilən ətlərin qarışığından hazırlana bilər. Kolbasa qiyməsinin qablaşdırılmasından asılı olaraq təbii, süni pərdələrdə olan və pərdəsiz kolbasalar vardır. Kəsikdəki görünüşünə görə eyni kütləli, içərisində şpik, dil, əzələ yaxud yağ hissəcikləri olan kolbasalar fərqləndirilir.

Kolbasalar növünə, çeşidinə, hazırlanma qaydasına, batonlarının formasına ğörə müxtəlif olur. Kolbasa məmulatları istehsal texnologiyasından və xammaldan asılı olaraq aşağıdakı qruplara ayrılır:

- bişirilmiş kolbasalar,
- hisəverilmiş kolbasalar,
- qan kolbasaları,
- pəhriz kolbasaları,
- müalicəvi kolbasalar,
- sosiskalar,
- sardelkalar,
- ət çörəyi,
- paştet,
- zels,
- soyutma və s.

---

[24] http://www.doingbusiness.org/data/exploreeconomies/azerbaijan

Kolbasa məmulatlarının hazırlanmasının texnoloji prosesi və ardıcıllığı ümumi halda şəkil 2-də təsvir olunub (aydındır ki, istehsal olunan kolbasa məmulatının növündən asılı olaraq texnoloji proseslərdə və istehsal tsiklində fərqlər mövcuddur). Emal prosesi karkas ətin sümükdən və başqa lazımsız tərkib hissələrindən ayrılması, xırdalanması və yetişdirilməsindən başlayır. Daha sonra xırdalanmış ət kütləsindən qiymə çəkilir və ona müxtəlif yağ (kolbasanın növündən asılı olaraq kərə yağı, bitki yağı, donuz piyi və s.), duz, şəkər, müxtəlif ədviyyatlar və başqa xammallar (un, sarımsaq, nişasta, yumurta melanjı və s.) əlavə edilərək ət emulsiyası hazırlanır. Hazırlanmış emulsiya texnoloji əməliyyatlardan keçirilib təbii və süni pərdələrə doldurularaq sarılır və müxtəlif temperaturlarda texnoloji emaldan (asqıda qurudulma, bişirilmə, soyutma, yuyulma və s.) keçirilir. Hazır məhsulları paketlənir, hazır məhsul anbarına verilir və satışa çıxarılır (*şəkil 2*).

Kolbasa və kolbasa məmulatlarının növündən asılı olaraq istehsal tsiklinin uzunluğu fərqli olur. İstehsal proseslərində su və enerji məsrəfləri mühüm rol oynayır: qiymətləri hökumət tərəfindən tənzimlənən bu xidmətlərin tariflərində lapdan baş verən dəyişikliklər istehsalçıları planlaşdırılmayan xərclərlə üz-üzə qoyur.

Kolbasa məmulatlarının keyfiyyəti və qiyməti istehsal prosesinə cəlb edilən xammal və materialların keyfiyyəti və qiymətindən, habelə istehsal texnologiyasına düzgün əməl edilməsindən asılı olur.

Kolbasa və kolbasa məmulatlarının istehsalı standartları və onlara qarşı qoyulan tələblər Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən işlənib hazırlanır. Komitənin nəzdində olan Azərbaycan Standartları İnstitutu 2012-ci ildə ət və ət məhsulları istehsalı sektorunda geniş tətbiq edilən “halal” markasından istifadəni tənzimləmək üçün 3 standart tələb işləyib hazırlayıb və təsdiq edib:




**Şəkil 2. Kolbasa istehsalı prosesinin ardıcıllığı (Mənbə: Et ve et ürünleri imalatı: Kaynak verimliligi rehberi. TC Bilim, Sanayi ve Teknoloji Bakanlığı, 2016)**

1) **AZS 372-2012** *“Halal” ət məhsulları. İstehsalı, daşınması, saxlanması və satışı üzrə ümumi tələblər”* - bu dövlət standartı “Halal” markası ilə satışa buraxılan ət məhsullarına şamil edilir və bu məhsulların istehsalı, daşınması, saxlanması və satışı üzrə ümumi tələbləri müəyyən edir;

2) **AZS 386-2012** (CAC/GL 24-2012) *““Halal” termininin istifadəsi üzrə ümumi qaydalar”* - bu standart yeyinti məhsullarının markalanması zamanı məhsulun “halal” prinsiplərinə əsasən hazırlandığı haqqında məlumatın qəbul edilməsi üzrə tələbləri müəyyən edir.

3) **AZS 731-2012** (OİC/SMİİC1:2011) *““Halal” qida. Ümumi tələblər”* - bu standart İslam qaydalarına uyğun qida məhsullarının hazırlanması məqsədi ilə qida zəncirində xammalın alınması, hazırlanması, emalı, təsnifatı, təyin edilməsi, qablaşdırılması, markalanması, işarələnməsi, nəzarəti, yüklənib-boşaldılması, nəql edilməsi, paylanması, saxlanılması və xidmət edilməsi mərhələlərində riayət edilməsi vacib olan ümumi qaydaları əhatə edir.

Bu standartlar 1 avqust 2012-ci il tarixindən Azərbaycan Respublikasında tətbiq edilir[25].

Bundan əlavə, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi 2014-cü ilin fevralında **AZS 757-2014** *“Halal məhsulların sertifikatlaşdırma qaydaları”* dövlət standartı təsdiq edib[26]. Bu standart “halal məhsul”ların sertifikatlaşdırılmasını, bu

[25] http://www.azstand.gov.az/

məhsullara uyğunluq sertifikatının verilməsi qaydalarını tənzimləyir. Standarta əsasən "halal məhsul"ların sertifikatlaşdırılması üçün sifarişçi məhsulun sertifikatlaşdırılması üzrə akkreditasiya olunmuş sertifikatlaşdırma orqanına sifarişlə müraciət etməlidir. Sertifikatlaşdırılmayan məhsulların üzərində "halal" sözünün istifadəsinə qadağa qoyulub.

Qanunvericiliyin tələblərinə uyğun olaraq, Azərbaycanda yeyinti malları, o cümlədən ət və ət məhsullarının istehsalı, ixracı, idxalı və daxili bazarda satışı üçün aşağıdakı sertifikatların alınması tələb olunur:

- Baytarlıq şəhadətnaməsi;
- Gigiyenik sertifikat;
- Keyfiyyət sertifikat - Avropa Birliyinə ixrac olunan məhsullar üçün;
- Mənşə sertifikatı;
- Uyğunluq sertifikatı.

Məhsulların sertifikatlaşdırılması prosedurlarında kifayət qədər şəffaflığın təmin edilməməsi sertifikatlaşdırma prosesində subyektiv yanaşmaların qalmasına meydan açır və sahibkarların ciddi əlavə xərclərlə üzləşmələrinə gətirib çıxarır.

Hökumətin müvafiq nəzarət qurumları (Səhiyyə Nazirliyinin Gigiyena və Epidemiologiya Mərkəzi, Dövlət Baytarlıq Nəzarəti Komitəsi, İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi və başqaları) kolbasa istehsalçılarına məxsus kəsim mərkəzlərində və emal fabriklərinin soyuducu kameralarında mütəmadi yoxlamalar aparırlar. Hətta zaman-zaman belə yoxlamalar zamanı ayrı-ayrı müəssisələrə məxsus obyektlərdə mənşəyi və sağlamlığı şübhə doğuran ətinn tapılması, gigiyenik tələblərə əməl edilməməsi kimi hallar barədə ictimaiyyətə məlumatlar verilir[27], bunlarla bağlı şirkətlərlə müvafiq dövlət qurumları arasında qarşılıqlı ittihamlar səsləndirilir. Yaxud zaman-zaman mətbuatda kolbasa məmulatlarının tərkibinə karton və başqa maddələrin qatılması haqqında məlumatlar dərc olunur. Ət və ət məhsulları istehsalçıları Assosiasiyası ictimaiyyətə açıqlama verərək[28] belə məsələlərə aydınlıq gətirməyə çalışır. Amma indiyədək bu sahədə həm ictimaiyyəti, həm də şirkətləri qane edə biləcək, yerli istehsalçılara etimad yarada biləcək mexanizmin formalaşdırılmaması bu sektorun inkişafına mane olan əsas amillərdən biri hesab etmək olar. Yerli şirkətlərə qarşı xüsusilə müvafiq dövlət qurumları tərəfindən səsləndirilən əsaslı yaxud əsassız ittihamlar, şirkətlərin bir-birlərinə qarşı apardıqları gizli savaşlar və "qara-PR" kampaniyaları istehlakçıları yerli istehsal məhsullarını almaqdan çəkindirir və əhali idxal məhsullarına üstünlük verməli olur. Mövcud standartları və tələbləri pozaraq istehlakçıları aldadan, insanların sağlamlığına təhlükə yaradan hallara yol verən şirkətlərə qarşı çox sərt (hətta belə şirkətlərin fəaliyyətinin dayandırılması kimi) tədbirlər həyata keçirilməlidir. Bununla istehlakçılaırn həm yerli istehsalçılara, həm də müvafiq hökumət qurumlarına etimadı artar. Başqa sözlə, sektorun fəaliyyətini tənzimləyən dövlət qurumları, sektorda olan istehsalçı firmalar və istehlakçılar arasında qarşılıqlı məsuliyyətə, etibara və etimada əsaslanan münasibətlərin qurulmasına ehtiyac var. Belə münasibətlərin qurulmasını təmin edən başlıca mexanizm müstəqil və ədalətli məhkəmə sistemi ola bilər.

---

[26] http://www.azstand.gov.az/?id=27&sub_id=42&xid=418&lang=1

[27] Məsələn: http://www.vet.gov.az/az/content/news/1255 ; https://azertag.az/xeber/Elba_MMC_nin_heyvan_kesimi_emali_fabrikinde_menseyi_melum_olmayan_heyvan_etleri_askarlanib-1055002; http://www.pia.az/%C2%ABKristal_CF%C2%BB_MMC_halala_-139155-xeber.html#.WggDsGiCzDc; http://sehiyye.gov.az/xeberler/40-gem-trfindn-aparlan-yoxlamalar-zaman-bir-sra-obyektlrd-sanitariya-sahsind-nqsanlar-akar-edilmidir.html ; http://www.azstand.gov.az/index.php?id=27&sub_id=42&xid=273&lang=1

[28] http://baymedia.az/news.php?id=27781

***<u>Bazarlama və satış</u>.*** Sektorun dəyər zəncirinin son həlqəsi bazarlama və satışdır. Araşdırmanın əvvəlki bölmələrində aparılan təhlillərdən məlum olduğu kimi, ölkədə istehsal edilən ət və ət məhsulları, xüsusilə kolbasa məmulatları elə yerli bazarda satılır. Ölkədə istehsal edilən kolbasa və kolbasa məmulatları hələlik ixrac olunmur. Amma ölkə bazarında satılan kolbasa məmulatlarının mühüm hissəsi idxal məhsullarıdır.

Ət və ət emalı məhsullarının (xüsusilə kolbasa məmulatlarının) əsas istehlakçıları əhalinin geniş təbəqələri hesab olunur. Bundan əlavə bir sıra dövlət qurumları (Milli ordu, Daxili İşlər Nazirliyinin qurumları, Fövqəladə Hallar Nazirliyinin qurumları, Milli təhlqkəsizlik orqanları, Səhiyyə Nazirliyi, Təhsil Nazirliyi və s.), otellər, iaşə müəssisələri və obyektlər ət və ət məhsullarının böyük alıcıları hesab olunur.

Dövlət qurumları və dövlət sifarişləri (dövlət büdcəsindən maliyyələşən yuxarıda sadalanan təşkilatların satınalmaları) həm də alıcı olaraq bu sahə bazarının mühüm "oyunçu"larından biridir. Bu sektorda çalışan sahibkarlarla söhbətlər zamanı onların qeyd etdikləri problemlərdən biri də dövlət qurumlarının satınalmaları ilə bağlı tenderlərin şəffaf keçirilməməsi, bu prosesdə rəqabət şərtlərinə əməl olunmaması xüsusi olaraq vurğulanıb. Məlum olduğu kimi, dövlət sifarişi ilə ərzaq məhsullarının satın alınmasının mərkəzləşdirilmiş qaydada həyata keçirilməsini təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 11 aprel 2016-cı il tarixli Fərmanı ilə "*Dövlət müəssisə və təşkilatları (idarələri) tərəfindən ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınması Qaydası*" təsdiq edilib. Prezidentin 11 aprel 2016-cı il tarixli Sərəncamı ilə də Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində "Ərzaq məhsullarının tədarükü və təchizati" Açıq Səhmdar Cəmiyyəti yaradılıb. Cəmiyyətin əsas məqsədi ərzaq məhsullarının istehsalçılarından və satıcılarından belə məhsulları almaq və tədarük edərək satınalan təşkilatlara təqdim etməkdir.

Kolbasa və kolbasa məmulatlarının istehlakçılara çatdırılması əsasən pərakəndəsatış ticarət obyektləri vasitəsilə həyata keçirilir ki, bu da müxtəlif ölçülü marketlər və ərzaq mağazaları şəbəkəsi vasitəsiıə reallaşır. Araşdırma zamanı sektorda çalışan iş adamları ilə aparılan söhbətlər zamanı onlar ticarət əlavələrinin hazırda tətbiq olunan səviyyəsindən narazılıqlrımı xüsusilə bildirdilər. Onların sözlərinə görə, hazırda ticarət əlavələri kolbasa və kolbasa məmulatlarının pərakəndə satış qiymətinin 25-30 faizinə qədərini təşkil edir. Hətta supermarketlər əlavə güzəştlər də tələb edirlər. İstehsalçı-sahibkarlar xüsusilə iri supermarketlərin istehsalçılara qiymətləri diqtə etdiklərini bildiriblər. Bu halda ya qiymətlərin artması səbəbindən məhsulun satış miqdarının azalması baş verir, ya da istehsalçılar özlərinə çatmalı olan gəlirin bir hissəsindən satış müəssisələrinin xeyrinə imtina etməli olurlar. Hər iki hal istehsalçı firmaların xalis gəlirinin (mənfəətinin) azalması ilə nəticələnir.

Ticarət şəbəkəsində vaxtında satılmayan və vaxtı keçən kolbasa və kolbasa məmulatları istehsalçı firmalara geri qaytarılır. Geri qaytarılan belə məhsulların sonrakı taleyi ilə bağlı araşdırma zamanı dəqiq məlumat toplamaq mümkün olmadı. İstehsalçılar belə məhsulları məhv etdiklərini desələr də, bəzi iş adamları bu sahədə də ciddi problemlərlə üzləşdiklərini qeyd etdilər. Problem məhv edilən məhsulların itkilərə və zərərə aid edilməsi və bununla əlaqədar yaranan vergitutma məsələləri ilə bağlıdır.

Kolbasa və kolbasa məmulatları soyuq qəlyanaltı və "ayaqüstü yemək" ("fastfood") tipli ərzaq məhsulu hesab olunur. İstehsalçılaırn fikrincə, 2015-ci ildə baş verən böhran prosesləri, ölkədə iqtisadi fəallığın və əhalinin gəlirlərinin azalması, xüsusilə tikinti sektorunda iş yerlərinin ixtisarı, istehsal xərclərinin artması ilə əlaqədar məhsulların qiymətinin qalxması kimi amillər kolbasa və kolbasa məmulatlarının satış həcminə mənfi təsir göstərib: 2014-cü ilədək olan vəziyyətlə müqayisədə son illər satış həcmlərində azalma meyli müşahidə olunur.

## Nəticə və tövsiyələr

Azərbaycanda ət və ət məhsulları istehsalı sektorunun statistik və dəyər zənciri üzrə təhlili aşağıdakı **<u>nəticələrə</u>** gəlməyə əsas verir:

1) Azərbaycanda əhalinin hər nəfər hesabı ilə illik ət və ət məhsulları istehlakı səviyyəsi (33.5 kq) hökumətin təsdiq etdiyi minimum istehlak səbəti üzrə normaya uyğun olsa da, Avropa üzrə orta istehlak göstəricisindən 2 dəfədən çox aşağıdır;
2) İstehlakın aşağı səviyyədə olması ölkədə ət və ət məhsullarının qiymətlərinin yüksək, əhalinin gəlirlərinin isə aşağı səviyyəsi ilə əlaqəlidir;
3) Ölkə əhalisinin say artımı, əhalinin gəlirlərinin artması, ət və ət məhsullaırnın qiymətlərinin aşağı düşmə halında bu sektorun mühüm bir böyümə potensialının olduğunu göstərir;
4) Lakin ölkədə heyvandarlığın inkişafının ilkin bazasının hazırki durumu, habelə sektordakı istehsalçıların üzləşdikləri problemlər sektorun yetərincə inkişafına, davamlı olaraq artmaqda olan yerli tələbatı tam ödəməyə imkan vermir;
5) Sektorun mövcud vəziyyətini və inkişaf dinamikasını, yerli istehsal və istehlak göstəriciləri ilə bağlı rəsmi statistik məlumatlar yayğın və ziddiyyətlidir. Bunlar sektorun real durumunu dəqiq qiymətləndirməyə imkan vermir;
6) Bununla belə, rəsmi statistik məlumatlara əsasən, 2016-cı ildə ölkədə ərzaq məhsulu kimi istehlak olunan 325.9 min ton ətin təqribən 38 faizi mal əti, 37 faizi quş əti, 23 faizi isə qoyun və keçi ətindən (qalanı donuz və s. əti) ibarət olub. Kolbasa və kolbasa məmulatları istehsalı ölkə üzrə ümumi ət və ət məhsulları istehlakının 7-8 faizi qədərdir;
7) Sektorun əsas "oyunçu"ları olan istehsal firmalarının (fiziki-şəxs sahibkarlar və hüquqi şəxslər) fəaliyyət göstəriciləri haqqında həm yetərli qədər toplu məlumatlar yoxdur, həm də fərdi məlumat və informasiyalar çox məhduddur. Sektorda irili-xırdalı 20-dək firmanın (o cümlədən, fiziki şəxs-sahibkarlar daxil olmaqla) fəaliyyət göstərdiyi bildirilir. Araşdırma zamanı bunlardan 14-nün adını və yerləşmə yerinidəqiqləşdirə bildik;
8) Ölkənin ət və ət məhsulları bazarına xarici məhsullar həm diri heyvanlaırn idxalı, həm heyvan və quşların ət və onun hissələri, həm də kolbasa məmulatları formasında daxil olur:
   i. DSK-nın məlumatlarına əsasən, 2013-2014-cü illərdə hər il xaricdən ölkəyə 100 min başdan çox iribuynuzli heyvan gətirilib, 2016-cı ildə bu göstərici 27 min baş olub. Ətlik məqsədi üçün gətirilən belə heyvanların əksər hissəsi Gürcüstan, Ukrayna və Rusiyadan idxal olunur;
   ii. 2016-cı ildə ölkəyə 5.3 min ton iribuynuzlu heyvan əti idxal olunub. 2011-2015-ci illər dövründə ölkəyə idxal olunan iribuynuzlu heyvan ətinin əsas tədarükçüsü Hindistan olub. 2016-cı ildə isə belə ətinin 86.8%-i Ukraynadan gətirilib;
   iii. Əvvəlki illə müqayisədə 2016-cı ildə ölkəyə quş əti və onun əlavə məhsullarının idxal 3 dəfədən çox artıb və 24.4 min ton olub. Son illər ölkəmizə quş ətinin əsas tədarükçüsü hər zaman ABŞ olub. Bundan əlavə Türkiyə, Rusiya, Ukrayna, Çin, Kanada və başqa ölkələrdən də quş əti gətirilir;
   iv. Ət kolbasalarının və digər analoji məhsulların ölkəyə idxalı ildən-ilə artır. 2016-cı ildə belə idxalın həcmi 1.9 min ton olub ki, bu da 2012-ci ildə olduğundan 2.9 dəfə, 2015-ci ildəki ilə müqayisədə isə 74.2% çoxdur. Bu

məhsulların Azərbaycana əsas tədarükçüsü hər zaman Rusiya olub. Bundan başqa Almaniya, Türkiyə, Polşa, ABŞ, Belarus və bir sıra digər ölkələrin istehsal məhsulları da idxal olunur.

9) Sektorun əsas “oyunçu”larından biri dövlətdir. Dövlət hazırda bu sektorda üçlü rola malikdir: i) ət və ət məhsullarının tərkibi və keyfiyyətinin əhalinin sağlamlıq tələblərinə uyğunluğuna nəzarətin təmin edilməsi; ii) sektorun inkişafı üçün əlverişli şərtləri təmin etməsi və tənzimləməsi; iii) sektor məhsulunun iri alıcısı rolunda çıxış etməsi (dövlət satınalmaları). Sektorun gələcək inkişafı həlledici dərəcədə dövlətin iqtisadi siyasətindən asılıdır;

10) Sektorun gələcək inkişafı ilə bağlı hökumətin baxışları və bu istiqamətdə hökumətin həyata keçirməyə hazırlaşdığı tədbirlər “Azərbaycan Respublika-sında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair” Strateji Yol Xəritəsində əks olunub. Orada intensiv ferma modeli əsasında iri heyvandarlıq komplekslərinin yaradılmasının təşviqi, habelə regionlarda kiçik və orta ölçülü ət və süd məhsulları emalı müəssisələri şəbəkəsinin genişləndirilməsinin dəstəklənməsi nəzərdə tutulur. Bundan başqa Strateji Yol Xəritəsində heyvandarlığın qarışıq qüvvəli yemlə təminatının yaxşılaşdırıl-ması və damazlıq işinin inkişaf etdirilməsi prioritet kimi kimi müəyyən edilib.

Ət və ət məhsulları istehsalı sektorunun inkişafında onun dəyər zəncirinin həlqələri üzrə aşakara çıxardığımız **problemlər** aşağıdakılardır:

*Heyvandarlığın ilkin bazası və ətlik heyvanların bəslənməsi sahəsində:*

- heyvandarlığın yem bazasının zəifliyi (həm təbii otlaq, örüş və biçənək sahələrinin azlığı, həm yem bitkilərinin əkin sahələrinin az və qeyri-məhsuldar olması;
- heyvandarlığın yem ehtiyaclarının əsasən idxal hesabına ödənilməsi;
- yem idxalı üçün logistika imkanlarının məhdudluğu;
- kənd təsərürfatının elmi bazasının zəif olması;
- heyvandarlığın cins tərkibində daha az məhsuldar yerli cinslərin üstün paya malik olması;
- heyvandarlığın baytarlıq, zootexniki və fitosanitar xidmətlərlə təminatının yetərli səviyyədə qurulmaması;
- ölkədə heyvandarlıq sahəsində fəaliyyət göstərən təsərrüfatların ölçüləri çox kiçik olması səbəbindən onların fəaliyyətinin səmərəliliyinin son dərəcə aşağı olması;
- xırda təsərrüfatların müasir texnologiyalardan, habelə zəruri baytarlıq, zootexniki və sair xidmətlərdən yararlanma imkanlarının, kifayət qədər yem bazasını yarada bilmə potensialının, habelə zəruri maliyyə resurslarına əlçatanlığının məhdud olması;
- heyvandarlığın ilkin bazasının idxaldan asılılıq səviyyəsinin yüksək olması (damazlıq heyvanlar və yemin çox hissəsi, zəruri texniki avadanlıqlar, dərman preparatları, yem bitkiləri üçün gübrələr, hətta zəruri xidmətlərin bir hissəsi idxal olunur;
- iribuynuzlu heyvanların bəslənməsi və ət istehsalı xərclərinin yüksək olması və s.

*Diri heyvanların və heyvan ətinin topdansatışı sahəsində*:

- müasir tələblərə və müvafiq standartlara uyğun ət kəsimi və satışı infrastrukturunun (ixtisaslaşdırılmış ət kombinatlarının, zəruri təchizatı olan ət kəsimi mərkəzləri, müvafiq logistika şəbəkəsi və s.) kifayət qədər inkişaf etməməsi,

- habelə yararsız və insan sağlamlığı üçün təhlükəli ətlərin, habelə qaçaqmalçılıq yolu ilə əldə edilən ətlərin emal müəssisələrinə daxil olmasının qarşısını ala biləcək mexanizmlərin yetərli olmaması;
- ölkədə istehsal olunan həm mal-qara, həm də quş ətinin topdansatış qiymətinin bir sıra ölkələrdən gətirilən oxşar ətlərin qiyməti ilə rəqabətə girə bilməməsi və s..

*Kolbasa və kolbasa məmulatlarının istehsalı sahəsində:*

- tikinti yerinin alınması, tikintiyə icazənin alınması, obyektin elektrik və digər xidmətlərə qoşulması ilə bağlı çətinliklər;
- bank sektorunda son illər yaşanan böhranla əlaqədar iş adamlarının, xüsusilə yeni işə başlayan sahibkarların kredit və başqa formalarda maliyyə vəsaitləri əldə edə bilmə imkanlarının ciddi şəkildə məhdudlaşması;
- məhsulların sertifikatlaşdırılması prosedurlarında kifayət qədər şəffaflığın təmin edilməməsi və sertifikatlaşdırma prosesində subyektiv yanaşmaların qalması səbəbindən sahibkarların əlavə xərclərlə üzləşməsi;
- sektorun fəaliyyətini tənzimləyən dövlət qurumları, sektorda fəaliyyət göstərən firmalar və əhali (istehlakçılar) arasında qarşılıqlı məsuliyyətə, etibara və etimada əsaslanan münasibətlərin və belə münasibətləri təmin edəcək mexanzimlərin yoxluğu və s..

*Bazarlama və satış sahəsində:*

- sektorun məhsullarının ixrac imkanlarının məhdud olması;
- dövlət qurumlarının satınalmaları ilə bağlı tenderlərin şəffaf keçirilməməsi, bu prosesdə rəqabət şərtlərinə əməl olunmaması;
- pərakəndəsatış ticarət obyektlərinin təyin etdikləri ticarət əlavələrinin yüksək olması (hazırda ticarət əlavələri kolbasa və kolbasa məmulatlarının pərakəndə satış qiymətinin 25-30 faizinə qədərini təşkil edir) səbəbindən istehsalçı firmaların xalis gəlirinin (mənfəətinin) azalması;
- ticarət şəbəkəsində satılmayan və vaxtı keçən kolbasa və kolbasa məmulatlarının istehsalçı firmalara geri qaytarılması və bunların məhv edilməsindən yaranan itki və zərərlər;
- 2014-cü ilədək olan vəziyyətlə müqayisədə son illər satış həcmlərinin azalması.

Ölkə əhalisinin ət və ət məhsullarına artmaqda olan tələbat nəzərə alınaraq, ət və ət məhsullaır sektorunda istehsalçıların üzləşdiyi yuxarıdakı problemlərin aradan qaldırılması və sektorun inkişafının təmin edilməsi üçün aşağıdakı **tövsiyələri** irəli sürürük:

*Heyvandarlığın inkişafı sahəsində:*

- heyvandarlığın yem bazasının gücləndiriləsi üçün təbii otlaq, örüş və biçənək sahələrində baş verən eroziya proseslərinin qarşısının alınması istiqamətində sistemli tədbirlərin həyata keçirilməsi, habelə yem bitkilərinin əkin sahələrinin genişləndirilməsi, daha məhsuldar yem bitkilərinin əkilməsinin təmin edilməsi;
- kənd təsərürfatının elmi bazasının gücləndirilməsi üçün kənd təsərrüfatı təyinatlı bütün elmi-tədqiqat institutlarının və mərkəzlərinin fəaliyyətinin nəticəyə əsaslı fəaliyyətə keçirilməsi, bu müəssisələrin fəaliyyətinin kənd təsərrüfatı istehsalçıları ilə birbaşa əlaqələndirilməsinin təmin edilməsi;
- heyvandarlıq və quşçuluq üçün yen istehsal edən müəssisələrin qurulmasının stimullaşdırılması, xüsusilə bu sahəyə xarici investorların cəlb edilməsi;
- heyvandarlıq təsərrüfatlarında seleksiya-damazlıq işlərinin aparılması və heyvandarlığın cins tərkibinin yaxşılaşdırılması;
- ölkəyə ətlik istiqamətli cinslərin gətirilməsi işi bərpa edilməlidir. Şarole, Hereford, Aberdin-Anqus, Kalmık, Şorthorn, Hollavey, Limuzin, Santa-

Hertruda kimi təmizqanlı ətlik cinslərin gətirilməsi ət və ət məhsullarının istehsalının artırılmasında əhəmiyyətli rol oynaya bilər;

- heyvandarlığın baytarlıq, zootexniki və fitosanitar xidmətlərlə təminatının gücləndirilməsi üçün bu sahələrdə kadr hazırlığının gücləndirilməsi, müvafiq ali məktəblərin tədris proqramlarının müasir tələblərə uyğunlaşdırılması;
- heyvandarlıq sahəsində iriölçülü təsərrüfatların yaranmasına nail olmaq üçün bu sahədə kənd istehsal kooperasiyalarının formalaşması və inkişafının konkret tədbirlərlə stimullaşdırılması (belə koopertativlərə cins heyvanların və avadanlığın lizinqə verilməsində üstün hüquqlar verilməsi, güzətli kreditlərin təqdim edilməsi, risklərin sığortalanmasının təmin edilməsi, uçot və hesabat işlərinin təşkilində, habelə informasiya təminatında yardım göstərilməsi və s. kimi);
- müasir tələblərə və müvafiq standartlara uyğun ət kəsimi və satışı infrastrukturunun (ixtisaslaşdırılmış ət kombinatlarının, zəruri təchizatı olan ət kəsimi mərkəzləri, müvafiq logistika şəbəkəsi və s.) qurulması və s..

*Kolbasa və kolbasa məmulatlarının istehsalı sahəsində:*

- tikinti yerinin alınması, tikintiyə icazənin alınması, obyektin elektrik və digər xidmətlərə qoşulması ilə bağlı prosedurların asanlaşdırılması və xərclərin azaldılması;
- sektorda fəaliyyətə başlamaq istəyən və fəaliyyətini genişləndirmək istəyən sahibkarların maliyyə resurslarının əlçatanlığının artırılması üçün onların Sahibkarlığa Kömək Milli Fondunun kreditlərindən yararlana bilmə imkanlarının genişləndirilməsi;
- sektorda çalışan sahibkarlara müvafiq avadanlıqların alınmasını asanlaşdıra biləcək lizinq xidmətlərinin təşkili (yaxud “Aqrolizinq” SC-nin gətirdiyi texnikanın siyahısına kolbasa məmulatlaırnın istehsalında istifadə olunan texnikanın daxil edilməsi);
- məhsulların sertifikatlaşdırılması prosedurlarının şəffaflığının artırılması və sertifikatlaşdırma prosesində korrupsiya risklərinin aradan qaldırılması;
- kolbasa və kolbasa məmulatlarının istehsalında istifadə etmək üçün (yəni təkrar emal məqsədi ilə) ölkəyə gətirilən quş ətinin idxal gömrük tariflərindən azad edilməsi;
- dövlət qurumlarının satınalmaları ilə bağlı tenderlərinin şəffaflığının artırılması və bu prosesdə haqlı rəqabət şərtlərinin təmin edilməsi;
- pərakəndəsatış ticarət obyektlərinin təyin etdikləri ticarət əlavələrinin səviyyəsinin aşağı endirilməsinə nail olmaq üçün bu sektorda olan məmur-inhisarçılığına qarşı tədbirlərin işlənməsi və həyata keçirilməsi;
- ticarət şəbəkələrindən geri qaytarılan və istifadə müddəti keçmiş kolbasa və kolbasa məmulatlarının məhv edilməsinin etibarlı mexanizminin işlənilməsi və tətbiqi və s.

*Sektorun inkişafı sahəsində sistemli dövlət siyasətinin qurulması üçün*:

- ət və ət məhsulları sektorunun inkişafı konsepsiyasının hazırlanması və həmin konsepsiya əsasında sektorun gələcək inkişaf proqramının işlənilməsi;
- sektorun fəaliyyətini tənzimləyən dövlət qurumları ilə Ət və ət məhsulları istehsalçıları Assosiasiyası və bu sektorla əlaqəli sahələrdə (heyvandarlıq, bitkiçilik, işgüzar xidmətlərin göstərilməsi və s.) fəaliyyət göstərən peşə birliklərinin əməkdaşlığının genişləndirilməsi, sektorla bağlı hökumət qərarlarının qəbulu və inkişaf layihələrinin hazırlanması prosesində birgə müzakirələrin təşkili;

- sektorun real vəziyyətini əks etdirən doğru statistik məlumat və informasiya bazasının formalaşdırılması üçün statistik məlumat toplama formalarının təkmilləşdirilməsi;
- sektorda fəaliyyət göstərən firmalaırn istehsal həcmləri haqqında real məlumatların statistik hesabatlara əks olunması həm də sektorun antiinhisar tənzimlənməsinin təmin edilməsi baxımından zəruridir;
- sektorda fəaliyyət göstərən firmaların fəaliyyətində gizli dövriyyələrin aradan qaldırılması, onlaırn bütün dövriyyələrini statistik hesabatlarda doğru əks etdirmələri üçün onlaır buna vadar edən səbəblərin öyrənilməsi və bunların aradan qaldırılması istiqamətində tədbirlərin həyata keçirilməsi;
- ölkədə vahid qida təhlükəsizliyi konsepsiyasının işlənilməsi;
- sektorun fəaliyyətini tənzimləyən dövlət qurumları, sektorda fəaliyyət göstərən firmalar və əhali (istehlakçılar) arasında qarşılıqlı məsuliyyətə, etibara və etimada əsaslanan münasibətlərin qurulması mexanizmlərinin hazırlanması və tətbiqi, xüsusilə firmalaırn və sektroun fəaliyyətini tənzimləyən dövlət qurumlarının vəzifəli şəxslərinin məsuliyyət mexanizmlərinin gücləndirilməsi və s..

**Əlavə 1**

**2016-cı ilin yanvar-dekabr aylarında malların idxalı və ixracına dair göstəricilər**
**Mal qrupları üzrə**

| Malın kodu | Malın adı | Ölçü vahidi | İdxal | | İxrac | |
|---|---|---|---|---|---|---|
| | | | miqdarı | min ABŞ dolları | miqdarı | min ABŞ dolları |
| 0101 | Diri atlar, ulaqlar, qatırlar və at qatırları | ədəd | 14 | 47,73 | 1160 | 165,76 |
| 0102 | Diri iribuynuzlu heyvanlar | ədəd | 27323 | 22780,21 | 134 | 303,14 |
| 0104 | Diri qoyunlar və keçilər | ədəd | 67413 | 2962,06 | 1010 | 86,12 |
| 0105 | Diri ev quşları, yəni Gallus domesticus növlü ev toyuqları, qazlar, hindtoyuqları, firəngtoyuqları | ədəd | 3075085 | 2610,81 | - | - |
| 010 | Digər diri heyvanlar | ədəd | 12554 | 295,2 | 36000 | 2,78 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 6 | | | | | | |
| 0201 | İribuynuzlu heyvan əti, (*təzə və ya soyudulmuş*) | ton | 10,64 | 244,98 | - | - |
| 0202 | İribuynuzlu heyvan əti, dondurulmuş | ton | 5224,86 | 13370,5 | 2,6 | 18,2 |
| 0203 | Donuz əti, (*təzə, soyudulmuş və ya dondurulmuş)* | ton | 1413,09 | 1971,49 | - | - |
| 0204 | Qoyun əti və ya keçi əti,(*təzə, soyudulmuş və ya dondurulmuş*) | ton | 81,2 | 158,47 | 2,49 | 19,54 |
| 0206 | İribuynuzlu heyvanın, donuzun, qoyunun, keçinin, atların, ulaqların, qatırların və ya at qatırlarının əlavə qida məhsulları (*təzə, soyudulmuş və ya dondurulmuş*) | ton | 97,43 | 180,49 | 44 | 19,91 |
| 0207 | Ev quşlarının əti və ət əlavələri, (*təzə, soyudulmuş və ya dondurulmuş*) | ton | 24435,38 | 20366,86 | - | - |
| 0208 | Digər ət və qidaya yararlı ət əlavələri, (*təzə, soyudulmuş və ya dondurulmuş*) | ton | 0,9 | 7,83 | - | - |
| 0209 | Yavan ətdən ayrılmış donuz piyi və ev quşunun piyi, əridilməmiş və ya başqa üsulla hasil edilməmiş, (*təzə, dondurulmuş, duzlu, qurudulmuş və ya hisə verilmiş*) | ton | 2304,85 | 2118,75 | - | - |
| 0210 | Ət və qidaya yararlı ət əlavələri, duzlu, duzlu suda olan, qurudulmuş və ya hisə verilmiş; ətdən və ət əlavələrindən qida üçün yararlı olan qaba və narın üyüdülmüş un | ton | 22,77 | 203,04 | - | - |

(Mənbə: DSK, https://www.stat.gov.az/source/trade/)

**2016-cı ilin yanvar-dekabr aylarında malların idxalı və ixracına dair göstəricilər**
**Mallar üzrə**

| Malın kodu | Malın adı | Ölçü vahidi | İdxal | | İxrac | |
|---|---|---|---|---|---|---|
| | | | miqdarı | min ABŞ dolları | miqdarı | min ABŞ dolları |
| 010121 | Diri atlar, safqanlı cins heyvanlar | ədəd | 4 | 17,1 | 5 | 2,9 |
| 010129 | Digər diri atlar | ədəd | 10 | 30,63 | 1155 | 162,86 |
| 010221 | Safqanlı cins diri iribuynuzlu ev heyvanları, düyələr, inəklər, digərləri | ədəd | 4799 | 14437,63 | 128 | 300,8 |
| 010229 | Digər diri iribuynuzlu heyvanlar | ədəd | 22446 | 8317,06 | - | - |
| 010239 | Digər camışlar | ədəd | 8 | 5,22 | 6 | 2,34 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 010290 | Digər diri iribuynuzlu heyvanlar, safqanlı cins heyvanlar (ev növləri və digərləri) | ədəd | 70 | 20,3 | - | - |
| 010410 | Diri qoyunlar | ədəd | 66805 | 2889 | 1010 | 86,12 |
| 010420 | Diri keçilər | ədəd | 608 | 73,06 | - | - |
| 010511 | Diri ev toyuqları, çəkisi 185 q-dan artıq olmayan | ədəd | 3042772 | 2574,26 | - | - |
| 010512 | Diri hindtoyuqları, çəkisi 185 q-dan artıq olmayan | ədəd | 50 | 0,62 | - | - |
| 010513 | Diri ördəklər, çəkisi 185 q-dan artıq olmayan | ədəd | 105 | 3,45 | - | - |
| 010514 | Diri qazlar, çəkisi 185 q-dan artıq olmayan | ədəd | 38 | 3,53 | - | - |
| 010515 | Diri firəngtoyuqları, çəkisi 185 q-dan artıq olmayan | ədəd | 140 | 0,8 | - | - |
| 010594 | Diri ev toyuqları, digərləri | ədəd | 31500 | 21,21 | - | - |
| 010599 | Digər diri ev quşları (ördəklər, qazlar, hindtoyuqları, firəngtoyuqları) | ədəd | 480 | 6,95 | - | - |
| 010611 | Başqa diri heyvanlar, primatlar | ədəd | 5 | 2,15 | - | - |
| 010639 | Digər quşlar ( göyərçinlər) | ədəd | 36 | 0,85 | - | - |
| 010641 | Arılar | ədəd | 12263 | 277,65 | - | - |
| 010649 | Digər həşəratlar | ədəd | 250 | 14,55 | - | - |
| 010690 | Digərləri,diri heyvanlar | ədəd | - | - | 36000 | 2,78 |
| 020110 | İribuynuzlu heyvan əti, təzə və ya soyudulmuş, cəmdəklər və şaqqalar | ton | 0,42 | 5,27 | - | - |
| 020120 | İribuynuzlu heyvan əti, təzə və ya soyudulmuş, digər sümüklü parçalar, sümükdən ayrılmamış | ton | 2,92 | 63,71 | - | - |
| 020130 | İribuynuzlu heyvan əti, təzə və ya soyudulmuş, sümükdən ayrılmış parçalar | ton | 7,29 | 176 | - | - |
| 020210 | İribuynuzlu heyvan əti, dondurulmuş, cəmdəklər və şaqqalar | ton | 224,13 | 448,3 | - | - |
| 020220 | İribuynuzlu heyvan əti, dondurulmuş, digər sümükdən ayrılmamış parçalar | ton | 3061,96 | 6841,14 | 2,6 | 18,2 |
| 020230 | İribuynuzlu heyvan əti, dondurulmuş, sümükdən ayrılmış,qabaq yarımşaqqalar, bütöv və ya ən çoxu beş parçaya bölünmüşlər | ton | 1938,78 | 6081,06 | - | - |
| 020311 | Donuz əti, təzə və ya soyudulmuş, cəmdəklər və şaqqalar | ton | 1,14 | 9,97 | - | - |
| 020312 | Donuz əti, təzə və ya soyudulmuş, budlar, kürəklər və onlardan parçalar, sümüyü ayrılmamış | ton | 1,2 | 4,87 | - | - |
| 020319 | Donuz əti, təzə və ya soyudulmuş, digər hissələri | ton | 25,09 | 17,78 | - | - |
| 020321 | Donuz əti, dondurulmuş, cəmdəklər və şaqqalar | ton | 0,4 | 1,58 | - | - |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 02032 2 | Donuz əti, dondurulmuş, budlar, kürəklər və onlardan parçalar, sümüyü ayrılmamış | ton | 30 | 47,03 | - | - |
| 02032 9 | Donuz əti, dondurulmuş, digər hissələri | ton | 1355,26 | 1890,27 | - | - |
| 02041 0 | Quzu cəmdəkləri və şaqqaları, təzə və ya soyudulmuş | ton | 74,85 | 78,66 | 0,6 | 4,23 |
| 02042 2 | Qoyun əti, təzə və ya soyudulmuş, sümükdən ayrılmamış digər parçalar | ton | 2,49 | 13,33 | - | - |
| 02042 3 | Qoyun əti, təzə və ya soyudulmuş, sümükdən ayrılmış parçalar | ton | 3,11 | 58,2 | - | - |
| 02043 0 | Quzu cəmdəkləri və şaqqaları, dondurulmuş | ton | - | - | 0,5 | 5,51 |
| 02044 2 | Qoyun əti, dondurulmuş, sümükdən ayrılmamış digər parçalar | ton | 0,52 | 5,02 | 1,4 | 9,8 |
| 02044 3 | Qoyun əti, dondurulmuş, sümükdən ayrılmış parçalar | ton | 0,1 | 1,2 | - | - |
| 02045 0 | Keçi əti, təzə, soyudulmuş və ya dondurulmuş cəmdəklər və şaqqalar | ton | 0,14 | 2,06 | - | - |
| 02061 0 | İribuynuzlu heyvanın əlavə qida məhsulları, təzə və ya soyudulmuş | ton | 1,02 | 14,26 | - | - |
| 02062 1 | İribuynuzlu heyvanın dilləri, dondurulmuş | ton | 1,03 | 2,04 | - | - |
| 02062 9 | İribuynuzlu heyvanın digər əlavə qida məhsulları, əczaçılıq məhsulunun istehsalı üçün, dondurulmuş | ton | 16,39 | 83,56 | 44 | 19,91 |
| 02064 9 | Donuzun digər əlavə qida məhsulları, dondurulmuş | ton | 78,99 | 80,64 | - | - |
| 02071 1 | Ev toyuqlarının əti, hissələrə ayrılmamış, təzə və ya soyudulmuş | ton | 3,9 | 25,44 | - | - |
| 02071 2 | Ev toyuqlarının əti, hissələrə ayrılmamış, dondurulmuş | ton | 2185,96 | 2518,24 | - | - |
| 02071 3 | Ev toyuqlarının hissələrə ayrılmış əti və əlavə məhsulları, təzə və ya soyudulmuş | ton | 0,96 | 12,17 | - | - |
| 02071 4 | Ev toyuqlarının hissələrə ayrılmış əti və əlavə məhsulları, dondurulmuş | ton | 21950,35 | 17111,53 | - | - |
| 02072 4 | Hindtoyuqlarının əti, hissələrə ayrılmamış, təzə və ya soyudulmuş | ton | 7,18 | 25,79 | - | - |
| 02072 5 | Hindtoyuqlarının əti, hissələrə ayrılmamış, dondurulmuş | ton | 26,13 | 58,98 | - | - |
| 02072 6 | Hindtoyuqlarının hissələrə ayrılmış əti və əlavə məhsulları, təzə və ya soyudulmuş | ton | 2,6 | 39,55 | - | - |
| 02072 7 | Hindtoyuqlarının hissələrə ayrılmış əti və əlavə məhsulları, dondurulmuş | ton | 213,36 | 408,56 | - | - |
| 02074 1 | Ördəklərin əti, hissələrə ayrılmamış, təzə və ya soyudulmuş | ton | 3,72 | 14,64 | - | - |
| 02074 2 | Hissələrə bölünməmiş, dondurulmuş ördəklərin əti | ton | 35,36 | 108,4 | - | - |
| 02074 4 | Ördəklərin cəmdək hissələri, sümükdən ayrılmamış və ayrılmış əti | ton | 2,58 | 22,58 | - | - |
| 02074 5 | Digərləri, dondurulmuş sümükdən ayrılmış və ayrılmamışlar ördəkin ət hissələri | ton | 2,68 | 16,93 | - | - |
| 02075 | Qazların yaglı ciyəri, təzə və ya | ton | - | 0,06 | - | - |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 3 | soyudulmuş | | | | | |
| 020760 | Firəngtoyuqların hissələrə bölünməmiş, təzə, soyudulmuş və ya dondurulmuş əti | ton | 0,6 | 3,98 | - | - |
| 020810 | Ev dovşanlarının və ya vəhşi dovşanların əti və əlavə ət məhsulları, təzə, soyudulmuş və ya dondurulmuş | ton | 0,18 | 1,88 | - | - |
| 020890 | Digər heyvanların əti və əlavə ət məhsulları (ev göyərçinlərinin ,şimal marallarının) | ton | 0,72 | 5,95 | - | - |
| 020910 | Yavan ətdən ayrılmış donuz piyi təzə, soyudulmuş, dondurulmuş, duzlu və ya duzlu suda olan | ton | 2304,85 | 2118,75 | - | - |
| 021011 | Donuz əti, budları, kürəkləri, sümükləri çıxarılmamış ətdən ərzaq unu | ton | 1,14 | 10,79 | - | - |
| 021012 | Duzlanmış, qurudulmuş və ya hisə verilmiş donuz ətinin döş hissəsi və onun parçaları( qaba və narın üyüdülmüş un) | ton | 3,08 | 19,95 | - | - |
| 021019 | Duzlanmış, qurudulmuş və ya hisə verilmiş donuz ətinin digər hissələri (qaba və narın üyüdülmüş un) | ton | 12,74 | 75,61 | - | - |
| 021020 | Iribuynuzlu heyvan əti sümükdən ayrılmamış və sümüksüz ( ət və qidaya yararlı ət əlavələri, ətdən və ya ət əlavələrindən qida üçün yararlı olan qaba və narın üyüdülmüş un) | ton | 3,96 | 67,26 | - | - |
| 021099 | Sair duzlanmış, qurudulmuş və ya hisə verilmiş ət məhsulları, ət məhsullarından hazırlanmış ərzaq unu | ton | 1,85 | 29,43 | - | - |

(Mənbə: DSK, https://www.stat.gov.az/source/trade/)